**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**MAGİSTRATURA MƏRKƏZİ**

***Əlyazması hüququnda***

**Şükürlü Azər Şakir oğlu**

(MAGİSTRANTIN A.S.A)

**"Məişət şüşə qablarının funksional erqonomik və estetik göstəricilərinin tədqiqi" mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İstiqamətin şifri və adı: 060644** **İstehlak mallarının ekspertizası və marketinqi**

**İxtisaslaşma:** **Gömrük ekspertizası**

**Elmi rəhbəri:** **Magistr rəhbərinin proqramı**

**dos.k.e.n.O.Ə.Məmmədov** **dos.k.e.n.O.Ə.Məmmədov**

**Kafedra müdiri** **Prof.Ə.P.Həsənov**

**BAKI - 2018**

MÜNDƏRİCAT

Səh.

**GİRİŞ............................................................................................3 - 4**

**I. NƏZƏRİ HİSSƏ**

1.1. Şüşə məmulatları haqqında məlumat..................................................5

1.2. Şüşə məmulatlarının keyfiyyətini formalaşdıran amillər...........................6 - 10

1.3. Şüşə məmulatlarının keyfiyyətinə verilən tələblər və onların istehlak xassələri..........................................................11 -13

**II TƏDQİQAT HİSSƏSİ**

2.1. Şüşə məmulatlarının keyfiyyət və kəmiyyət ekspertizasının qayda və metodları..........................................................14 -24

2.2. Şüşə məmulatlarının nöqsanları və onların yaranma səbəblərinin tədqiqi..........................................................24 - 29

**III NƏZƏRİ HİSSƏ**

3.1. Şüşə məmulatlarının təsnifatı və çeşid xarakteristikası............................30 - 65

3.2. Şüşə məmulatlarının qablaşdırılması, daşınması, saxlanması və markalanması..........................................................66 - 71

**NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................................................72 -73**

**ƏDƏBİYYAT..........................................................................74 - 75**

# GİRİŞ

Bildiyimiz kimi ilk şüşə eramızdan 2000 il əvvəl işıq üzü görməyə başlamışdır. Amma şüşə istehsalına çox gec başlanmışdır və istifadə edilmişdir ki, bu da bizim eraya təsadüf edilir. Demək olar ki, şüşə istehsalı XX əsrdə sürətlə inkişaf edərək, yeni texnologiyalara meydan açmışdır. Ərimiş şüşəni dartaraq istehsal və icad edən ilk dövlət isə Belçika olmuşdur. Avropada bu üsulun tətbiqi artıq yox dərəcəsindədir. Ingiltərə şirkəti olan “Pilkinqton” ilk dəfə “Float” üsulu deyilən bir istehsal prosesi ixtira etdi ki, onun çox böyük üstünlükləri vardır.

Bunlar aşağıdakılardır:

1. Bütün səthdə şüşənin eyni qalınlıqda olması
2. Heç bir parlaqlaşdırmaq tələb olmadan şüşənin səthinin yüksək keyfiyyətli olması
3. Daha keyfiyyətli və daha məhsuldar mal istehsal etmək

Şüşədən hazırlanan məhsullar 2 cür olur:

1. Baza əsaslı
2. Emal əsaslı

Baza əsaslı şüşələr:

1. Float şüşə - silisium, kalsium, natrium birləşməsindən əmələ gələn həm düz, həm də şəffaf və həm də sadə şüşə
2. Rəngli şüşələr – yaşıl, göy, boz, qızılı sadə, düz şüşələr
3. Naxışlı şüşələr – rəngli və rəngsiz

Şüşələrin qalınlığı standartlara əsasən hazırlanır və aşağıdakı ölçülərdə olur. Qalınlığı: 3, 4, 5, 6, 8, 10, 12, 15, 19, 25mm. Ölçünün isə böyüyü 6000x3210

Qalınlığı 1mm olan şüşənin çəkisi, yəni bir kvadrat metri 2,5kq olur.

Qalınlığı 4mm olan şüşənin çəkisi isə həq 1m$^2$-ə 10kq düşür.

Emal əsaslı şüşələrə - pərdə çəkilmiş şüşələr, güzgülər, qum örtüklü şüşələr, dekorativ şüşələr.

Regionlarda əhalinin maddi rifahını yaxşılaşdırmaq naminə, qeyri-neft sektorunu inkişaf etdirmək üçün hər sahəyə diqqət yetirmək lazımdır və sahələrdən

biri də şüşə istehsal edən müəssisələrdir. Amma Azərbaycanda kifayət qədər xam material olsa da, bu sahədə çox geridə qalmışıq. Şüşə istehsalında əsas xammal kvars qumudur ki, bu da əsasən xaricdən gəlirdi.

Ekologiya və təbii Sərvətlər Nazirliyinin Elmi-Tədqiqat İnstitutu araşdırmalar apararaq bildirmişdir ki, Azərbaycanda şüşə qablar istehsal etmək üçün çox böyük xammal yataqları var. Bunlardan biri Sanqaçaldakı Acıvəli yatağındakı kvars qumudur ki, buradan səmərəli istifadə etsək uzun illər boyunca şüşə saxsı, çini, kaşı, mayolika istehsalı üçün lazımi ehtiyatı var. 100 illər boyu kvars qumu həmin müəssisələri təmin edə bilər. Kvars qumunu saflaşdırmaq o qədər də çətin deyil və çox vəsait tələb etmir.

2017-ci ilin dekabr ayında Qaradağ rayonu ərazisində "İnter Qlass" Açıq Səhmdar Cəmiyyətinin şüşə məmulatları zavodu istifadəyə verilib. Müəssisəyə 52 milyon dollar sərmayə qoyulub, əsas avadanlıqlar isə İtaliyadan gətirilib. Bu müəssisə ildə yüz milyon ədəd şüşə qab istehsal etmək gücünə malikdir. 250 işçisi var. Xammal Gəncə, Qazax, Ukrayna və Rusiyadan gəlir. Məhsulu gələcəkdə xaricə ixrac etmək qarşılarında duran əsas məqsədləridir.

# I. NƏZƏRİ HİSSƏ

## 1.1. ŞÜŞƏ MƏMULATLARI HAQQINDA MƏLUMAT

**Pireks qablar** – Bu qabların səsi bütün dünyadan gəlir, hər bir mətbəxdə var və demək olar ki,çoxlarına tanışdır.

İstiliyə qarşı çox dözümlü olduğu üçün XIX əsrin axırlarında onlardan fənər və silindirlərdə telefon və teleqraf batareyalarını saxlayırdılar və bu ilk dəfə Almaniyada ixtira edilib.

Onların mətbəxtdə istifadə edilməsi prosesi təsadüfən yaranıb. Şirkətdə çalışan bir işçi həyat yoldaşına boş batareya qabı gətirir və ona bu qabın çox dözümlü olduğunu deyir. Qadın isə bu qabda keks bişirmək istəyir və buna nail olur. Bu qab metal və keramikanı layiqincə əvəz edir. Belə qabların istehsalına 1915-ci ildə başladılar və texliklə populyar oldu. Artıq belə qablar kolleksiyaçılar tərəfindən yığılmağa başlandı. əvvəl belə qablar şəffaf şüşədən hazırlandı, daha sonra isə rəngli şüşələrdən istehsal eilməyə başlandı. Rəngli şüşələrin ən məşhurları isə çəhrayı və firuzəyi rənglər idi.

1970-ci ildə isə qabların "Dostluq" modeli istehsal edildi. Sonralar Borsilikatlı şüşələrin istehsalına başlandı ki, bunlardan astronomik cihazlarda istifadə edilirdi.

Pireks qablara gəldikdə isə onlar hələ də məhşurdur, istehsalı davam edir. Bir brend kimi çox məşhurdur.

## 1.2. ŞÜŞƏ MƏMULATLARININ KEYFİYYƏTİNİ FORMALAŞDIRAN AMİLLƏR

Bunlara bilavasitə keyfiyyətə təsir edən amillər və keyfiyyəti stimullaşdıran amillər aiddir.

**Amillərin birinci qrupuna** aiddir: birincisi, proyektləşdirmənin və modelləşdirmənin keyfiyyəti; ikincisi hazırlanma keyfiyyəti (normativ-texniki sənədləşmənin keyfiyyəti, alətlərin və avadanlığın keyfiyyəti, xammalın keyfiyyəti, komplektləşdirici məmulatın keyfiyyəti, işçilərin əməyinin keyfiyyəti, işin texnoloji rejiminə riayət olunma). [1]

**İkinci qrupa, yəni stimullaşdırıcı amillərə** iqtisadi effektlik (həmçinin qiymət), işçilərin maddi marağı, aşağı keyfiyyətli mallar üçün qoyulan sanksiyalar aiddir.

Göstərilən amillər obyektiv və subyektiv ola bilər. Məmulatların konstruksiyaları, istehsalat bazasının və istismar bazasının texniki səviyyəsi, hansı ki, istifadə olunan məhsulun keyfiyyətinə uyğun olmalıdır və b. obyektiv amillərdir. Obyektiv amillər subyektivlərə nisbətən daha stabildir. Subyektiv amillərə elələri aiddir ki, onlar insanın fəaliyyəti ilə bağlıdır, yəni adamların istehsal funksiyalarına münasibətindən və bacarıqdan ibarətdir: peşə ustalığı, insanın psixoloji xarakteri, əməyin nəticəsinə şəxsi maraq.

Subyektiv amillərin xüsusiyyəti ondan ibarətdir ki, obyektiv amillərə nisbətən onlar az davamlıdır. Malların keyfiyyətinə bu amillərin işləndiyi şərait də təsir edir.

Məmulatın keyfiyyətinin artmasına və texniki tərəqqinin tezləşməsinə malların standartlaşdırılması təsir edir. Standartlaşmanın səviyyəsinin yüksəlməsi malların keyfiyyətinə müsbət təsir göstərir. Belə ki, keyfiyyətə olan tələblər, ayrı-ayrı göstəricilərin normativləri və mal haqqında digər məlumatlar standartlarla və ya texniki şəraitlə reqlamentə olur. [2]

Şüşələr təmiz halda şəffaf, parlaq, bərk, quru, amma tez sınan olur. Şüşələr yüksək dərəcəli istidən yumşalıb, duru bir hala düşür. Şüşənin bu xasiyyətindən istifadə edərək, ondan nazik tellər almaq mümkün olur. Belə tellərdən müxtəlif növ toxunmalar və hörmələr hazırlanır.

Şüçələr narın qumdan əmələ gəlir. Bu qum kimyəvi cəhətdən nə qədər təmiz olarsa, bir o qədər ondan yüksək keyfiyyətli şüşə qabları hazırlamaq mümkündür. Şüşənin keyfiyyətinə çox mənfi təsir edən, qumda dəmir oksidinin olmasıdır. Belə qumdan yaşıl və göy rəngli şüşə alınır. Bakı ətrafında qumların belə xasiyyətdə olması, onlardan ancaq göy rəngli şüşələr istehsal etməyə imkan verir.

Qumdan əlavə, şüşə istehsalında soda və potaş da iştirak edir. Şüşələrin növündən asılı olaraq, onlara mərmər, təbaşir və ya əhəng daşı ovuntusu qatılır. Optik və büllur şüşələri istehsal etdikdə, onlara əlavə olaraq qurğuşun suriki (rəngi), şüşələrin əriməsinə kömək etmək üçün isə bora turşusu qatılır. Şüşələr süni halda istənilən rənglərə salmaq üçün, onlara metal oksidləri əlavə edilir. Dəmir, mis, qalay, kobalt və qeyrilərinin oksidləri şüşə istehsalına çox işlədilir. Bu qədər materiallardan şüşə istehsalı üçün ən çox miqdarda işlənəni qumdur. [2]

Şüşə hazırladıqda, yuxarıda göstərilən xam materialları əvvəlcə xırdalayıb üyüdür və narın hala gətirirlər. Sonra onların hər birindən faiz hesabı ilə lazımi miqdarda götürürlər. Yaxşı qarışdırılmış bu materiallara tez əriməsi üçün əlavə şüşə xırdaları da qatırlar.

Şüşə materiallarını xüsusi isti saxlayan "regenerator" kürələrində bişirirlər. Belə kürələr iki sistemdə: küvəc formalı və vannaya oxşar olur. [6]

Küvəc formalı kürələrdən qiymətli şüşə qablar istehsalında istifadə edirlər. Vannaya oxşar kürələrdə isə adi növ şüşələri bişirirlər . Bu kürələr odadavamlı kərpiclərdən tikilir və içi vannaya oxşar olur, üstü isə həmin kərpiclər ilə örtülür. Bu kürələrin davamlı olması üçün onların ətrafı dəmir qurşağa tutulur.

Belə kürələr: odun, kömür, neft və ya qaz vasitəsilə qızdırılıb, hərarəti 1500 – $1600^0$-yə çatdırılır. Bu zaman şüşə təmizlənib tamamilə şəffaf bir hala gəlir. Şüşənin içərisində qalmış hava qabarcıqlarını çıxarmaq üçün ərimiş şüşəyə alt qatdan güclü su buxarı vururlar və yaxud içərisinə bir neçə kartof, çuğundur atırlar. Bunlar şüşə məhluluna batdıqca, havacıqlar üstə qalxır və bununla da şüşədə olan qabarcıqlar hava ilə üzə çıxır.

Şüşə bişib hazır olduqda, onun hərarətini azaldıb, $800^0$-yə qədər endirirlər. Belə hərarətdə şüşə bir qədər qatılanıb uzanma, yayılma xasiyyəti alır.

**Şüşə mallarının formaya salınması**

Şüşə mallarını əsas etibarilə dörd üsulla formaya salırlar:

1. Üfürmə
2. Tökmə
3. Preslənib sıxma
4. Dartıb uzatma

1. Üfürmə üsulu ilə ümumiyyətlə girdə formalı, içi boş şüşələri: bankaları, butulkaları, lampa şüşələrini, stəkanları və s. hazırlayırlar. Bu üsulda uzun dəmir borular vasitəsilə kürənin deşiklərindən qatılaşmış, qırmızı rəngli, çox hərarətli şüşədən azca götürürlər. Onu çuqun, bürünc və yaxud odadavamlı gildən hazırlanmış formalar içərisinə salıb örtürlər və ağız ilə borunu üfürürlər. Bu zaman hava boru vasitəsilə keçib maye şüşəni böyüdür, onu genişləndirib qəlibin formasına salır. Qəlibləri avtomatik halda açıb, həmin şüşəni oradan çıxarırlar və azca boğazına su vurmaq ilə onu borudan ayırırlar.

Belə formaya salınmış şüşənin boğaz hissəsini sonradan formaya salırlar.

Eni tikilmiş şüşə zavodlarında insan nəfəsindən bu cür istifadə hallarını xüsusi maşınlarla əvəz edirlər. [6]

2. Tökmə üsulu ilə güzgü, masaüstü şüşələrini, boşqabları, nəlbəkiləri və sairəni hazırlayırlar. Güzgü şüşələrini hazırladıqda, yanmayan materialdan masaların qıraqlarına çərçivə vururlar. Bu çərçivələrin hündürlüyü şüşə təbəqəsi qalınlığında olur. Bir qədər duru şüşəni belə masaların üstünə çərçivə içərisinə tökdükdə, istənilən qalınlıqda təbəqə alınır. Boşqab və sairəni də duru şüşəni tökmək üsulu ilə formaya salırlar.

3. Preslənib sıxmaq üsulunda iç tərəflərində lazımi naxışlar hazırlanmış metal formalardan istifadə edirlər. Maye halında olan şüşəni bu formalara töküb, başqa bir forma ilə sıxırlar: şüşə iki formanın arasında qalıb sıxılır, formanın naxışlarına dolur və beləliklə, həmin naxışlar şüşə qabın üzərinə düşür. Ucuz qiymətli, qalın divarlı qabları da bu qayda ilə formaya salırlar.

Presləmə üsulu ucuz qiymətli və asan olduğundan, ondan geniş istifadə edirlər.

Presləmə ilə hazırlanmış qablar hərarətə az davamlı və ağır olur; divarları qalın olan bu qabların iç qatları hərarətdən tez qızır, genişlənir, bayır tərəfləri isə qızmır və genişlənmir, nəticədə onlar çatlayıb sınır. Bütün bunlara baxmayaraq, presləmə üsulu ilə hazırlanan qabların istehsalı gündən-günə artmaqdadır.

4. Dartıb uzatma üsulu ilə şüşələri formaya salmaq çox inkişaf etmişdir. Pəncərə şüşələrini, bütün şüşə borularını dartıb uzatma ilə formaya salırlar. Keçmişdə pəncərə şüşələrini hazırlamaq üçün əvvəlcə üfürmək ilə böyük şüşə balon hazırlayırdılar. Sonra onların bir yanını, altını və boğazını almas ilə kəsib, isti halda ikən onları yayıb yastı təbəqə şəklinə salırdılar. Bu üsul çətin və az nəticə verici olduğundan, bu vasitə ilə ancaq xırda səthli şüşələr istehsal etmək mümkün idi. Hal-hazırda bütün ölkələrdə pəncərə şüşələrini "Furko" maşını vasitəsilə hazırlayırlar. Bu maşın üç mərtəbəli olub, onun kanalı xırda vallardan ibarətdir. Bu maşının qarmaqları şüşə əridən kürədən bişmiş şüşəni isti halda tutub kanal içərisindən yuxarı dartır. Beləliklə, şüşə xüsusi vallar arasından keçərək, sıxılır və nazik lent halında yuxarı mərtəbəyə çıxır. Hər iki tərəfdə olan vallar bu lentin kürədən çıxıb bütöv halda yuxarı qalxmasına kömək edir. [6]

Bu üsul ilə istənilən uzunluqda və qalınlıqda pəncərə şüşəsi hazırlamaq mümkün olur.

Bütün şüşə mallarının kövrəkliyini azaltmaq üçün onlardakı yüksək hərarəti tədricən azaldırlar. Bundan asılı olaraq, üfürmə ilə hazırlananları formaya salıb qurtardıqdan sonra, onları 400 – 500 dərəcə hərarəti olan odsuz kürələrdə - şkaflarda 10 – 12 saat saxlayıb, sonra adi hərarət çıxarırlar.

**Şüşə mallarının naxışlanması**

Pəncərə və boru şüşələrindən başqa, demək olar ki, bütün şüşə malları naxışlanmış olur. Yüksək növ pəncərə şüşələrinin də bir hissəsi tutqun və ya əlvan rəngdə naxışlanır. Şüşələrdə olan naxışlar bir neçə növdür:

1. Şüşənin üzünə tutqunluq vermək
2. Əridici turşular vasitəsilə şüşənin üst təbəqəsində naxış əmələ gətirmək
3. Şüşənin üzünü kəsmək ilə naxışlamaq
4. Şüşənin üzünü əlvan rənglərlə naxışlamaq

5. Alovlamaq ilə şüşənin üzündəki naxışları aydınlaşdırmaq
6. Qızıl suyu ilə naxış vurmaq
7. Kənarlarını gümüşə tutmaq
8. Üzərinə başqa rəngli şüşə ilə naxış əlavə etmək
9. Rəngli şüşədən olan saplar ilə naxış əmələ gətirmək
10. Mərmərə oxşar naxış vurmaq
11. Metal oksidləri ilə şüşənin rəngini tamamilə dəyişdirmək
12. Başqa mürəkkəb üsullarla vurulan naxışlar

Şüşələrin üzünə tutqun (matovı) naxışlar vurmaq üçün, naxış enliyində metal lent götürülür; qab dəzgahda fırlandıqca, onun üzərinə ardı kəsilmədən yaş qum tökülür və həmin qum lent ilə həmin qabın arasını tutur. Lent qumları fırlanan qablara sıxdığına görə, qum qabın üzünü cızır, naxış əmələ gətirir. Belə naxışlı qablar ucuz qiymətli sayılır. [9]

Şüşə qabların üzünü turşular ilə naxışladıqda, əvvəlcə qabların üzünü mum və ya rezin ilə tamamilə örtürlər. Bu örtülmüş yerlər üzərində əl və yaxud "Giloşir" maşınları ilə istənilən naxışlar vurulur. Şüşənin üstü naxışlar nəticəsində açıldığından, həmin yerlərə əyici turşu sürtürlər. Bu turşu şüşənin ancaq üst təbəqəsini əyib, naxış əmələ gətirir. Sonradan belə qabları isti su ilə yuduqda, mum tökülür və qabın üzərində naxışlar aşkar görünür.

Şüşə qabların üzərini sivri iynələrlə də cızıb naxış əmələ gətirmək olur. Bu əməliyyatı "Pantoqraf" maşınları vasitəsilə edirlər. Bu naxışlar da turşu vasitəsilə olan naxışlara oxşayır, amma bunlar zərif və nazik olduğundan qiymətli sayılır.

"Almas naxışlı" qablar çox qiymətli sayılır. Bu naxışlar əl və yaxud maşınlar vasitəsilə vurulur. Bunun üçün şüşələrin üzərində arxa oxşar naxışlar kəsir, sonra onların kənarlarını hamarlayırlar. Şüşə qabların üst təbəqəsi bir rəngdə, amma alt təbəqəsi başqa rəngdə olduqda, bu üsul ilə büllura oxşar naxışlı qablar əmələ gətirilir.

## 1.3. ŞÜŞƏ MƏMULATLARININ KEYFİYYƏTİNƏ VERİLƏN TƏLƏBLƏR VƏ ONLARIN İSTEHLAK XASSƏLƏRİ

Tələblər dedikdə təyinatına görə müəyyən zaman müddətində istifadə olunmasının mümkünlüyünü təmin etmək üçün elə xüsusiyyətlər nəzərdə tutulur ki, onlara mal uyğun gəlsin. Müxtəlif dövrlərdə tələblərin xarakteri və dərəcəsi eyni deyil və əhalinin maddi mədəni həyat səviyyəsindən, əşyaların təyinatından, xammal resurslarının olmasından, istehsalın texniki-iqtisadi imkanlarından, mal haqqında əhalinin xəbərdar olma dərəcəsindən asılıdır. [1]

Tələblər səviyyəsi ilə malların keyfiyyəti arasında onların daima artmasına və təzələnməsinə kömək edən müəyyən uyğunsuzluq var.

Əmtəəyə olan tələblər perspektiv və cari, ümumi və spesifik ola bilər.

***Cari tələblər*** satışda olan seriyalı istehsal mallara qarşı olur və işlənib hazırlanır. Cari tələblər ölkənin iqtisadiyyatının inkişafının müəyyən mərhələsində istehsalın texniki və iqtisadi imkanları nəzərə alınmaqla müəyyən edirlər. Bir qayda olaraq, bu tələblər dövlət standartları ilə və texniki şəraitlə birlikdə reqlamentdə olur. Cari tələblər periodik olaraq nəzərdən keçirilir, dəqiqləşdirilir və dəyişdirilir.

***Perspektiv tələblər*** malların keyfiyyət göstəricilərinin səviyyəsinə görə daha geniş kompleksini birləşdirir. Onlar üçün əsas olaraq malların keyfiyyətinə olan cari tələblər götürülür. Mallara olan perspektiv tələbləri işləyib hazırlayarkən tələbatın daha dolğun qane edilməsini, istehsal proseslərinin təkmilləşməsini, xammalın yeni növlərinin meydana gəlməsini və başqa amilləri nəzərə almaq lazımdır.

Perspektiv tələblər texniki proses inkişaf etdikcə cari qrupa keçir. Perspektiv tələblərin hazırlanması və cari tələblərin nəzərdən keçirilməsi əmtəəşünaslığın mühüm vəzifəsidir.

***Ümumi tələblər*** eyni dərəcədə gah bir, gah da malların çoxuna qoyula bilər. Onlara eləri aiddir ki, məsələn, mal öz təyinatına nə dərəcədə müvafiqdir, öz funksiyasını nə dərəcədə yerinə yetirir, istifadədə rahatlığı, insan üçün ziyansızlığı, istismarı zamanı möhkəmliyi, dözümlüyü, təmirinin mümkünlüyü və sadəliyi,

estetik tələblər və s. İnsan orqanizmi üçün ziyansız olmaq tələbi malların bütün növləri üçün vacibdir.

***Spesifik tələblər*** ya məmulatlar qrupuna, ya da müəyyən mala qoyulur (məsələn, kəskin temperaturda farfor və şüşə məmulatın istismar mümkünlüyü).

Cari perspektiv, ümumi və spesifik tələblər istehlakın hansı tərəflərini xarakterizə etməsindən asılı olaraq sosial, funksional, texnoloji, erqonomik, gigiyenik, estetik tələblərə aid oluna bilər. Bütün bu tələblər müvafiq xassələrlə və göstəricilərlə xarakterizə olunur.

Sosial tələblər geniş mənada bu və ya digər malın istehsalının ictimai tələbata uyğunluğu, onun istehsalının və istehlakının özünü doğrultması deməkdir. Statik göstəricilərin analizi, istehlak modelinin işlənib hazırlanması və sosioloji tədqiqatların keçirilməsi bu tələbləri aşkarlamağa imkan verir. Belə analizin əsasında malların optimal çeşidi işlənib hazırlanır.

***Funksional tələblər*** məmulat tərəfindən onun əsas funksiyasının yerinə yetirilməsinə olan tələblərdir. Əgər mal funksional tələblərə uyğun gəlmirsə, onda o, təyinatına görə istifadə oluna bilməz.

***Erqonomik tələblər*** istismar prosesində məmulatın istifadəsinin rahatlığını, insan orqanizminin xüsusiyyətlərinə uyğunluğunu, məişətdə insan tərəfindən optimal istismar şəraitinin təminini nəzərdə tutur.

***Gigiyenik tələblər*** insanın məmulatla və ətraf mühitlə qarşılıqlı əlaqəsi zamanı təhlükəsiz və zərərsiz həyat fəaliyyəti yaratmağı nəzərdə tutur. Bu tələblər polimer materiallardan və plastmasdan hazırlanmış mallar üçün böyük əhəmiyyətə malikdir.

Məmulatı istifadəyə buraxmazdan əvvəl bu məmulatın insan üçün zərərsizliyini təsdiq edən Səhiyyə  Nazirliyinin Dövlət Sanitariya inspeksiyası tərəfindən icazə tələb olunur.

***Estetik tələblər*** məmulatın konstruksiya formasına, xarici tərtibatına və digər xüsusiyyətlərinə olan tələblərdir. Onlar malın cəmiyyət üçün qiymətliyini, faydalığını, rasionallığını, funksional məqsədyönlüyünü, həmçinin əhalinin zövqünə və dəbə uyğun olmasını aşkarlayır.

***Texnoloji tələbləri*** ən əvvəl materiallara, məsələn, parçalara, toxuculuq saplarına, laklara, tikinti materiallarına verilir. Belə materiallar istifadəsində yüngüllüyü və sadəliyi ilə gərək fərqlənsin, müasir işlənmə metodlarının tətbiqinə imkan versin.

***Mallarınn (məmulatın) etibarlığına, davamlığına olan tələblər.*** Mallar gərək istismara davamlı olsunlar. Bu tələblər öz növbəsində məmulatın təmirə yararlı olmasına, tam gücü ilə istifadə olunmasına, saxlanılmasına, uzun müddət qalmasına kömək edir. Məmulatların fiziki və mənəvi işlədilmə müddətinin böyük əhəmiyyəti var. [3]

***İqtisadi tələblər*** təkcə istehsal xərclərini deyil, həmçinin əldə olunmaqla, istifadəsilə, malların təmiri ilə və digər xərcləri ilə bağlı istehlakçı xərclərini özündə cəm edir.

**Malın qorunub saxlanması.** Bu tələblər ilk növbədə müəyyən olunmuş müddətdə və o müddət qurtardıqdan sonra da malın istehlak dəyərini qoruyub saxlayan şəraitə aid olur. Bu tələb kimyəvi mallar, ətriyyat və s. üçün böyük əhəmiyyət kəsb edir. Ona görə bunlar ətraf (xarici) mühitin təsiri nəticəsində (nəmişlik, temperatur, işıq və s.) öz əsas xassələrini dəyişir və bunun nəticəsində, bir qayda olaraq, malların keyfiyyət göstəriciləri aşağı düşür.

# II TƏDQİQAT HİSSƏSİ

## 2.1. ŞÜŞƏ MƏMULATLARININ KEYFİYYƏT VƏ KƏMİYYƏT EKSPERTİZASININ QAYDA VƏ METODLARI

Bəzi məmulat və mallarda olduğu kimi şüşədə də keyfiyyət və kəmiyyət Ekspertizası eyni vaxtda aparılır. Ilk öncə ekspert malın nəqliyyat sənədlərini, sonra isə müqavilə şərtlərini, nümunələri, kataloqları, malın sayını bildirən sənədləri və s. yoxlayıb aşağıdakı məlumatları qeydiyyata alır:

1. Ekspertizanı tələb edən müəssisənin sifariş nömrəsi, tarixi
2. Ekspertiza vaxtı məsuliyyət daşıyan maddi-məsul şəxslərin telefon nömrəsi
3. Ad və familiyaları
4. Nəqliyyat vasitəsindən verilən kağızdakı malın miqdarı
5. Müqavilənin və yol qaimə sənədinin nömrəsi
6. Mal gətirən konteynerin nömrəsi
7. Malı istehsal edən şirkətin, malı göndərən təşkilatın, malı alan təşkilat haqqında bilgilər
8. Şüşə-büllur məmulatlarının standarta görə qablaşdırılması, markalanması, saxlanması və daşınmasının vəziyyəti

Əgər şüşə məmulatlarını ekspertiza etmək lazım gələrsə, bu zaman onları 100% çıxdaş etmək vacibdir. Əgər məmulatda hər hansı bir çatışmamazlıq və nöqsan olarsa, həmin məmulatları kənara qoyub, sonra onların üzərində ekspertiza aparmaq lazımdır və nöqsanların yaranma səbəbləri aydınlaşdırılmalıdır. Daha sonra digər məmulatların ekspertizasını davam etdirərək, mallarıb miqdarını, çeşidini, artikulunu, ölçüsünü nəzərə alaraq, onları ayrı-ayrılıqda anbarda yığmaq lazımdır ki, gələcək işlərdə problem yaranmasın. Bütün işlər başa çatdıqdan sonra mal yığılan qablaşdırıcılar, yəni yeşiklər bir-bir açılmalıdır. Yeşiklərin üzərində olan nəzarət lenti ekspertlərin iştirakı ilə açılmalıdır. Daha sonra yeşiklərin içərisindəki məmulatlar ekspert tərəfindən bir-bir açılmalıdır və stolun üzərinə yığılmalıdır. Məmulatlar saf-çürük ediləndən sonra əvvəlcə say, sonra da keyfiyyəti müəyyən edilir. Yoxlanılan məmulatların içərisində hər hansı bir

uyğunsuzluq olarsa, malların yoxlanması daha diqqətlə aparılır və sənədlər diqqətlə yenidən nəzərdən keçirilir. Bütün bunlarla yanaşı yeşiklərin brutto və netto çəkisi dəqiqləşdirilir və bu göstəricilər yeşiklərin üzərində olan çəki göstəriciləri ilə müqayisə edilir. Bütün görülən işlər haqqında ekspert akta qeydlər aparmalıdır. Yəni çatışmamazlıq, artıq mal, çeşidin səhv olması, artikulun uyğun gəlməməsi, məmulatın ölçüsünün, rənginin dəyişik olması mütləq aktda qeyd olunmalıdır. [18]

Ekspertiza zamanı ekspertdə metr, xətkeş, ştanqes çirkul, lupa, ölçülü stəkan, silindr və s. olmalıdır.

Məmulatın tutumunu ölçmək üçün onun içərisinə $20^0$C temperaturu olan su tökülür. Su həmin məmulatın ağzına qədər doldurulur və sonra da ölçülməlidir.

Məmulatın qalınlığı həm divarın, həm oturacağın və həm də ağzının enini ölçməklə təyin edilir. Bunu ştangens sirkulla ölçürlər.

Əgər məmulatda çat varsa, onun səbəbini bilmək vacib şərtlərdən biridir. Çünki çat həm daşınma zamanı, həm düzgün qablaşdırmama səbəbindən, həm də xammalın içərisində olan qatqıların düzgün proporsiyada olmaması səbəbindən yarana bilər. Bunu öyrənmək üçün Polyarskop cihazından istifadə etmək lazımdır. Bu cihaz şüşədəki daxili gərginliyi təyin edir.

Şüşə məmulatlarının keyfiyyətini təyin etmək üçün həm orqanoleptiki, həm də laboratoriya metodlarından istifadə edilir. [1]

Məlumdur ki, orqanoleptiki metod hiss üzvlərinin köməyi ilə həyata keçirilir: bu göz, qulaq, əl, iy və s. Məsələn, biz şüşə məmulatlarının üzərində olan bəzəndirmə, naxışlanma proseslərinin simmetrik və düzgün olmasını gözümüzlə, ona zərbə vurmaqla çıxardığı səsə görə şüşə və ya büllur olduğunu, onun öz çəkisinə müvafiq olduğunu və s. göstəriciləri orqanoleptiki metodla həyata keçiririk. Demək olar ki, orqanoleptiki metod şüşənin keyfiyyətini təyin etmək üçün daha çox istifadə edilir. Amma bu metod bəzən bizə 100%-li nəticə vermir, asan başa gəlir, tez bir zaman çərçivəsində müəyyən bir fikir yürüdülür, lakin tam məlumat alına bilinmir. Bu zaman biz bu məmulatların laboratoriya metodu ilə ekspertizasını aparırıq ki, bunun da bəzilərini nəzərinizə çatdırmaq istəyirəm:

**Laboratoriya üsulları ilə şüşənin tərkibinin təhlili**

Bilirik ki, şüşənin fiziki-kimyəvi xassələri onun kimyəvi tərkibi ilə əlaqəlidir.

Bu təhlil üsulu zamanı məmulatın tamlığını pozmadan aparmaq mümkündür. Məlumdur ki, bütün şüşələrin tərkibində $SiO_2$ var, bunun üçün onu təyin etmək lazım deyil. [10]

Şüşə məmulatlarında ancaq Na, K, Pb, Ba, Zn, Fe, Ca, Mg, Al, B olduğunu təyin etmək lazım gəlir. Bəzi elementlər var ki, Na, K, B oksidlərinin daha asandır və bunlar aşağıdakı üsullarla həyata keçirilir:

Məmulatın görnməyən hissəsində cızıq açılır və ora 2-3 damcı flüorit turşusu əlavə edirlər. Bu zaman əgər şüşənin tərkibində ağır metal oksidləri və qələvi torpaqla zəngindirsə, əlavə olunan turşu məhlulu tündləşir.

Şüşədə $Na_2O$, $K_2O$ və $B_2O_3$-ün olmasını bilmək istəyiriksə, möhkəm qızdırılmış platin məftili şüşədəki məhlula salırlar, qazla yanan alova yaxınlaşdırırlar. Əgər $Na_2O$ - varsa, alov - sarı rəngə

$K_2O$ - varsa, alov – bənövşəyi rəngə

$B_2O_3$ – varsa, alov - yaşılımtıl sarı rəngə boyanır.

Şüşənin tərkibində qurğuşun oksidi varsa, onu aşağıdakı kimi təyin edirlər: $PbF_2$ məhlulu ilə yuyulan məhlulu sınaq şüşəsinə tökülür və üzərinə kalium yod əlavə edilir.

Kimyəvi dayanıqlığın şüşədə özünü biruzə verməsi, onun kimyəvi tərkibindən asılıdır. Bu ya şüşə tozu üzərində, ya da hazır məmulatın üzərində aparıla bilir. Tozun üzərində sınaq aparmaq daha rahat və tez əmələ gəlir. Şüşənin davamlılığını təyin etmək üçün sınaq 80 – $100^0$C temperaturda aparılır.

Hazır şüşə məmulatlarında davamlılığı təyin etmək daha düzgün, daha dəqiq sonunc verir, amma bu üsul üçün uzun müddət lazımdır. Nümunə aparılan şüşə böyük olmalıdır. Dağılma dərəcəsini təyin etmək üçün nümunənin çəkisi itir və bu çəkinin itməsinə görə və ya şüşə qarışıqlarının miqdarına görə hesablanır. [10]

***Şüşənin şəffaflığı*** – onun tərkibindəki oksidlərdən, onların nisbətindən asılıdır. Şüşənin sıxlığı 2,2-dən 6-ya qədərdir. Sıxlığa görə şüşənin büllur və ya

əhəngli natriumlu olduğunu təyin etmək olar. Şüşə məmulatının sıxlığı piknometr adlanan cihazla həyata keçirilir.

***Şüşənin elastikliyi*** – istifadə olunan şüşədən istehsal edilmiş, yumru və ya düzbucaqlı ştabikin əyilməsinə əsasən təyin olunur. Elastiklik verilən formula əsasən hesablanır:

$$E = P_1E_1 + P_2E_2 + P_3E_3 + \cdots ..$$

P- lər şüşədəki oksidin miqdarı, %;

E – lər isə şüşənin tərkibindəki oksidlərin elastiklik əmsalıdır.

Şüşənin möhkəmliyi – şüşə məmulatları sıxılmadan çox dartılmaya məruz qalır. Şüşənin möhkəmliyi də yumru şüşə ştabikin dartılması zamanı ortaya sıxır.

Dartılma vaxtı möhkəmlik çox kiçik dəqiqliklə ölçülür: 15 – 20%.

Şüşənin möhkəmliyi verilən düsturun köməyi ilə təyin edilir:

$$F = P_1F_1 + P_2F_2 + \ldots ....$$

P – lər şüşədəki oksidlərin miqdarı, %-lə

F – lər oksidlərin möhkəmliyini təyin edən şüşənin zərbəyə davamlılığı – bu zaman nümunə dağılana qədər yük artırılır. Bu kürə formasındadır, çəkisi 0,6-0,1kq olur.

***Şüşənin termiki davamlılığı*** – bu ən vacib göstəricilərdən biridir. $20^0$C istiliyi olan məmulatın üzərinə $95^0$C isti su tökürlər, temperatur aşağı düşəndən sonra onu yenidən $20^0$C olan suya salırlar. Əgər məmulatlar sınmırsa, 99%nəticə verirsə, deməli məmulat keyfiyyətli hesab edilir.

Keyfiyyətə investisiyalar ilk növbədə insanlara doğru yönəlməlidir. Bu günün ən mühüm məsələsi yeni biliklərin əldə edilməsi baxışların, prinsiplərin dəyişməsidir. Müasir texnologiyanın alınması, istehsalatın modernləşdirilməsi yalnız o zaman özünü doğrulda bilər ki, bunların nəticəsində keyfiyyətli, rəqabət qabiliyyətli məhsul buraxılsın.

Bəs bu anlayışlar nədən ibarətdir? İSO 8402-86 beynəlxalq standartına müvafiq məhsulun keyfiyyəti (xidmətlər) məhsulun xassələrinin və xarakteristikasının birləşməsidir, yaxud güman edilən və ya şərtləndirilən tələbləri qane etmək qabiliyyəti verən xidmətlərdir.

Malların xassələri onların istismarı və ya istehlakı zamanı aşkar oluna bilər. Malların istismarı dedikdə istifadə prosesində resursların itkisi başa düşmək lazımdır. Məsələn, mühərrikin, maqnitofonun, paltaryuyan maşının və s. resurslarının itirilməsi. ***İstehlak*** termini dedikdə malın tam sərf olunması başa düşülür. Məsələn, yeyinti məhsulları, hər cür rənglər, yağlar və s.

Malın hər bir konkret növünün onun xassələri, keyfiyyəti və keyfiyyət göstəriciləri nöqteyi-nəzərindən xarakterizə etmək olar.

Malın xassələri onun təyinatına müvafiq müəyyən tələblərin qane edilməsini şərtləndirir. Malın xassələrini sadə və mürəkkəblərə bölmək olar. Sadə xassələr bunlardır: möhkəmlik, dağılmağa davamlı. Mürəkkəb xassələrə məhsulun etibarlılığını aid etmək olar. Buna daxildir: həmişəlik işlənməyə qadir, sıradan çıxmayan, təmirə yararlı. Lakin məhsulun heç də bütün xassələri eyni əhəmiyyətə malik deyil. [12]

Malın keyfiyyəti cəmiyyətin sosial tələblərini qane edir və istehsalatın məqsədyönlüyünü xarakterizə edir. Mal ola bilər ki, faydalı xassələrə malik olsun, ancaq əgər müəyyən tələbatı qane edəcək tələblərə müvafiq deyilsə, onda o, yüksək keyfiyyətli ola bilməz. Malın keyfiyyəti cəmiyyətin tələbatından asılıdır və əgər malların bir sıra növlərinə tələbat yoxdursa, onda bu malın keyfiyyəti sıfıra bərabər olur (təcrübədən məhsulun keyfiyyəti dedikdə yalnız malın normativ-texniki sənədlərin tələblərinə uyğunluluğu başa düşülür).

Malın keyfiyyəti fiziki, kimyəvi, bioloji xassələrdən, həmçinin insanın müəyyən tələbatını ödəyən funksional, estetik, erqonomik tələblərdən asılıdır. Ona görə də buraxılan məhsulun keyfiyyətinə olan tələblər daima artır. Bu da öz növbəsində malların bazarda rəqabət qabiliyyətinin artması ilə bağlıdır. Məhsulun yüksək keyfiyyəti xarici ticarətin effektiv inkişafına, məhsulun eksportunun genişlənməsinə və onun strukturunun mürəkkəbləşməsinə, ölkəyə valyutanın daxil olmasını yüksəltməyə kömək edir.

Yüksək keyfiyyətli malların buraxılışı həm onların istehsalı ilə, həm də satış bazarı ilə bağlıdır. Ona görə də malların müxtəlif növlərinə tələbatda əmələ gələn dəyişikliklər operativ müdaxilə tələb edirlər.

Malların satış bazarının tədqiqatı göstərir ki, malların keyfiyyətinin 10% artması qiymətlərin 40-50% artmasına səbəb olur, ancaq malların keyfiyyəti azaldıqda, malların qiyməti 20-25% azalır. Tədqiqatlar göstərir ki, əgər məmulatın keyfiyyəti dünya səviyyəsindən 50% aşağıdırsa, onda praktiki olaraq bu malın realizə edilməsi mümkün deyil. Ona görə də məhsulun keyfiyyəti böyük əhəmiyyətə malikdir və bu problemə daima diqqət yetirmək lazımdır.

Məhsulun keyfiyyət göstəriciləri sayca məhsulun cəmiyyətdə bu və ya digər tələbatları qane etməyə yararlılığını xarakterizə edir. Xarakterizə olunan xassələrə münasibətdə keyfiyyət göstəriciləri vahid və kompleks göstəricilər ola bilər.

Malın keyfiyyətinin vahid göstəricisi onun xassələrindən yalnız birinə aiddir. Məsələn, ətir iyinin davamlılığına, yaxud istənilən kimyəvi maddəyə. Vahid göstəricilərə, həmçinin qidanın kaloriliyini aid etmək olar.

Kompleks göstərici məhsulun keyfiyyətini təşkil edən xassələrin birləşməsini xarakterizə edir. Kompleks göstəricinin müxtəlifliyinə keyfiyyətin inteqral göstəricisi aiddir. Istehlak dəyərini və dəyəri təyin edən xassələr göstəricilərinin münasibətləri ilə ifadə olunan bu göstərici aşağıdakı düsturla hesablanır:

$$a = \frac{K_o}{Z}$$

burada, a – keyfiyyətin inteqral göstəricisidir;

$K_o$ – məmulatın əsas istehlak xassələrini xarakterizə edən göstəricidir;

Z – istehsala sərf olunan xərclər ($Z_n$) və məmulatın istismarına olan xərclər (Ze);

$$(Z=Z_n+Z_e)$$

İnteqral göstəricini başqa düsturla da təyin etmək olar:

$$U_n = \frac{E}{Z},$$

burada, E – istismardan olan yekun faydalı effekt (xidmət müddətində kapital təmirə qədər avtomobilin getməsi);

Z – məmulatın yaranmasına və istismarına olan yekun xərclər (avtomobil, traktor və s.).

Malın keyfiyyətinin müqayisə qiymətində etalon kimi qəbul edilmiş məmulatın keyfiyyətini xarakterizə edən baza göstəricilərindən istifadə olunur. Özü də baza göstəriciləri kimi yerli və xarici istehsalın ən yaxşı nümunələrinin keyfiyyətlərinin göstəriciləri, ya da təcrübəli yolla müəyyən olunmuş perspektiv nümunələrin göstəriciləri qəbul oluna bilər. Keyfiyyətin göstəricisinin müvafiq baza göstəricisinə münasibəti malın keyfiyyətinin nisbi göstəricisini xarakterizə edir. Lakin malın keyfiyyətinin bu mala olan tələbatla müqayisəsi həmişə mümkün olmur. Çünki cəmiyyətin tələbatı daima artır. Ona görə də malın keyfiyyətini deyil, onun keyfiyyət səviyyəsini qiymətləndirmək daha düzgündür.

Məmulatın keyfiyyət səviyyəsi nisbət həcmdir. O, məmulatın keyfiyyətini xarakterizə edir. Bu da onun keyfiyyət göstəricilərinin cəminin müvafiq baza göstəricilərinin cəmi ilə müqayisəyə əsaslanır. Keyfiyyət səviyyəsini ($S_k$) bu düsturla təyin etmək olar:

$$S_k = \frac{q}{q_b}$$

Burada, q, $q_b$ – qiymətləndirilən nümunənin keyfiyyət göstəricilərinin və baza göstəricisinin müvafiq sayca əhəmiyyəti.

Keyfiyyətin planlaşdırılması və qiymətlərin qoyulması üçün vacib olan keyfiyyət səviyyəsinin qiyməti məmulatın qiymətlənməsi zamanı qəbul komissiyaları tərəfindən aparılır.

Qiymətlənən məmulatın keyfiyyət göstəricisini sənaye müəssisələrinin və elmi tədqiqat institutlarının laboratoriyalarında sınaq mərkəzlərində ölçü, orqanoleptiki metodlarla təyin edirlər. Xassələrin göstəricilərinin ölçülən nəticələri sınaq protokolunda qeyd olunur və məhsulun keyfiyyət və texniki səviyyə xəritəsinə yazılır. Orada həmçinin baza göstəriciləri də qeyd olunur. Qiymətlənən məmulatın sayca əhəmiyyətli keyfiyyət göstəricilərini və baza göstəricilərini bilməklə keyfiyyətin səviyyəsini təyin etmək olar.

Keyfiyyət səviyyəsi differensial, kompleks və qarışıq metodların köməyii lə təyin olunur.

Keyfiyyətin səviyyəsini təyin etmək üçün işlədilən differensial metod çox sadədir və bu ondan ibarətdir ki, qiymətlənən məmulatın vahid keyfiyyət göstəriciləri eyni adlı baza göstəriciləri ilə müqayisə olunur. Keyfiyyətin səviyyəsi haqqında vahid nisbi göstəricilərin həcminə əsasən fikir yürüdülür. Əgər onlar hamısı vahiddən böyük və yaxud ona bərabərdirsə, onda qiymətlənən məmulatın keyfiyyət səviyyəsi baza səviyyəsindən yüksək olur, yaxud ona müvafiq olur. Ancaq nisbi göstəricilər və yaxud onların çox hissəsi vahiddən azdırsa, məmulatın keyfiyyət səviyyəsi baza nümunəsindən aşağı olur. [11]

Keyfiyyətin nisbi göstəricilərini bu düsturlarla hesablayırlar:

$$q_i = \frac{P_i}{P_{iB}}; \quad q_i = \frac{P_{iB}}{P_i}; \quad i = 1,2,3,...n,$$

burada, $P_i$, $P_{iB}$ – keyfiyyətin ***i***-əhəmiyyəti qiymətlənən və baza nümunələrinə müvafiqdir;

n – məmulatın göstəricilərinin sayı

***Kompleks metod*** bir neçə xassələrlə xarakterizə edilir. O, qiymətlənən məmulatın kompleks göstəricilərinin baza kompleks göstəriciləri ilə müqayisə əsasında qurulur.

Lakin keyfiyyətin tərkibində bu xassələrin əhəmiyyəti eyni deyil.

Kompleks göstəricini (U) adətən orta ölçülü hesab göstərici vasitəsilə ifadə edirlər və bu düsturla hesablayırlar:

$$U = m_1P_1 + m_2P_2 + ... + m_nP_n,$$
$$U = m_1q_1 + m_2q_2 + ... + m_nq_n.$$

Burada, $m_1$, $m_2$,...,$m_n$ – keyfiyyət göstəricilərinin çəki əmsalıdır;

$P_1$, $P_2$,...,$P_n$ – yuxarıda göstərilən düsturlar üzrə hesablanan keyfiyyətin nisbi göstəriciləridir;

$q_1, q_2,...,q_n$ – orta ölçülü göstəricidən ibarət olan keyfiyyət göstəricilərinin sayı.

***Nümunə.*** Estetik xassələrinə görə şüşə mallarının keyfiyyət səviyyəsini təyin etmək: estetik, xarici görünüşü, iç tərəfinin işləməsi, rəngi (cədvəl 1).

Cədvəl 1.

**Hər bir göstəricinin maksimum mümkün qiyməti – 5 bal**

| Göstərici | Çəki parametri, m ballar | Ekspert qiyməti, .... ballar |
|---|---|---|
| Estetik | 5 | 4,0 |
| Xarici görünüşü | 3 | 4,5 |
| İç tərəfinin işlənməsi | 2 | 3,0 |
| Rəngi | 4 | 4,0 |

Qiymətlənən modelin kompleks göstəricisi

$$U_o = m_1 \cdot P_1 + m_2 \cdot P_2 + m_3 \cdot P_3 + m_4 \cdot P_4 = 5 \cdot 4{,}0 + 3 \cdot 4{,}5 +$$
$$+ 2 \cdot 3{,}0 + 4 \cdot 4{,}0 = 55{,}5 bal$$

Baza nümunəli estetik xassələrinin kompleks göstəricisi $U_B$ – 48 bal.

Qiymətlənən ayaqqabının keyfiyyət səviyyəsi:

$$S_k = \frac{U_o}{U_B} = \frac{55{,}5}{48{,}0} = 1{,}16$$

Daha doğrusu, qiymətlənən şüşə məmulatlarının keyfiyyəti bir qədər baza nümunəsindən artıqdır.

***Keyfiyyətin səviyyəsinin qiymətləndirilməsinin qarışıq metodu*** differensial və kompleks metodları birləşdirir. Ən vacib xassələri differensial metodla, digər xassələrqruplara birləşdirilir və kompleks metodla qiymətləndirilir. Qarışıq metodu adətən məmulatın attestasiyası zamanı tətbiq edirlər. [17]

Keyfiyyət səviyyəsinin təyininin nəticələrinə görə qərar çıxardırlar. Əgər nümunənin keyfiyyət səviyyəsi qiymətlənibsə və bu səviyyə baza göstəricilərindən yüksək və ya ona bərabərdirsə, onda nümunə istehsala tövsiyə olunur.

Müxtəlif müəlliflər tərəfindən tövsiyə olunur ki, məmulatın keyfiyyətinin universal kriteriyası hesaba alınsın. Onu K ilə işarə edək. Qoy verilən göstəricinin mütləq əhəmiyyəti malın keyfiyyətindən asılı olaraq 0-dan 1-ə kimi intervalda dəyişir. Sıfır bildirir ki, məmulat tamamilə keyfiyyətsizdir, vahid (1) bildirir ki, o, keyfiyyətcə idealdır.

Belə ki, əgər hər hansı bir yeni yaranmış məmulatda K=0,35. Bu tipli malın keyfiyyətinin universal kriteriyasının faktiki həcmi 0,30-a bərabərdirsə, onda aydındır ki, yeni yaranmış malın keyfiyyəti yüksəkdir, baxmayaraq ki, idealdan uzaqdır. Buradan belə çıxır ki, məmulatın verilmiş növü üçün keyfiyyəti artırmaq üçün böyük rezervlər var. Əgər K=0,55, onda bizim məmulat K=0,30-la bütün cəhətdən keyfiyyətsizdir.

**Seçmə keyfiyyəti** elə kriteriyadır ki, alıcı ona lazım olan malı alarkən ilk növbədə onu rəhbər tutur (istehlak dəyəri).

*Misal.* Televizor alarkən bizi onun ekranı (dioqanal üzrə) rənginin keyfiyyəti, nə qədər çox işlənməsi maraqlandırır. Mühüm əlamətlərinə görə məmulatın keyfiyyətini xarakterizə edən *K* kompleks göstəricisi bu cür alınır:

$$K = \sum_{i=1}^{n} K_i a_i \cdot \sum_{i=1}^{n} a_i$$

Burada, $K_i$ – hər hansı bir əlamətinə görə məmulatın keyfiyyətini xarakterizə edən xüsusi göstəricilər; $a_i$ – verilmiş əlamətin çəki əmsalı.

Hər bir xüsusi göstərici öz növbəsində 0-1 intervalında yerləşir; eynilə o, çəki əmsalına da aiddir.

Rəngin keyfiyyətini asılı olmayan ekspertlər qrupunun köməyi ilə qiymətləndirmək olar. Onlardan hər biri yeni televizorun təsvir rəngini qiymətləndirir, məsələn, 100 bal sistemi ilə. Bütün ekspertlərin qiymətləri ortaq məxrəcə gətirilir və 100-ə bölünür. Analoji olaraq səsin və ya istismar zamanı rahatlıq keyfiyyətinə qiymət verərkən eyni cür hərəkət edirlər.

## 2.2. ŞÜŞƏ MƏMULATLARININ NÖQSANLARI VƏ ONLARIN YARANMA SƏBƏBLƏRİNİN TƏDQİQİ

Şüşə-büllur məmulatlarında demək olar ki, əsas sayılan bir neçə nöqsan var. O nöqsanların bəzilərini nəzərinizə çatdırıb, daha sonra isə yaranma səbəblərini açıqlayacam. Hər bir nöqsana görə isə məmulatın itki faizi olur. Bütün bunlar aşağıda göstərilir:

Ilk öncə kütlə nöqsanından başlayaq.

Sarımtıl və yaşılımtıl nöqsan – bu nöqsanın yaranma səbəbi 2 cür ola bilər: ya xammal keyfiyyətsiz, ya da şüşəbişirmə zəif olur. Bu nöqsan əgər çox gözə çarpırsa çıxdaş olunur, estetik görünüşü korlanırsa 30% itki verir.

Indi isə nöqsanları qruplaşdıraraq sxem şəklində nəzərinizə çatdırıram:

Kütlə nöqsanları

| Məmulatın adı | Xarici əlamətlər | Yaranmanın səbəbləri | Itki % |
|---|---|---|---|
| Şüşə stəkan | Sarımtıl | Keyfiyyətsiz xammalın işlədilməsi və ya şüşə bişirmə (gözlə az hiss edilən) | 30 –50% |
| Şüşə stəkan | Şəffaflığın olmaması boz-sarı rəng çaları | Kütlə tərkibinin pozulması, pis yapışdırılması, bişmə görünməyən yerdə, görünən yerdə | 10 – 20%<br>100% |
| Şüşə stəkan | Ağ rənglə şəffaflığın pozulması | Texnologiyanın pozulması. Mexaniki kristallaşma görünməyən yerdə görünən yerdə | 30 – 50%<br>100% |
| Şüşə stəkan | Şəffaf və ya qeyri şəffaf qaz qabarcıqları | Qaz şəklində olan məhsulların təmizlənməməsi | 30 – 50% |
| Şüşə stəkan | Şüşənin qatlar şəklində düzülməsi | Soyudulma prosesinin pozulması | 30 – 50% |
| İstehsal nöqsanları | | | |
| Şüşə serviz | Şüşə qırıntılarının | Şüşəbişirmə borusundan şüşə | 30 – 50%<br>100% |

| | | | |
|---|---|---|---|
| | üst və iç hissəsində olması | hissəciklərinin məmulata yapışması az halda, çox halda | |
| Məmulatın deformasiyası | Gövdənin mütənasibliyinin pozulması | Kütlənin qarışığında olan pozuntular | 100% |
| Alt hissənin müxtəlif qalınlıqda olması | Adi gözlə görünən qalınlıq | Şüşə kütləsinin bərabər paylanmaması | 50 –100% |
| Məmulatın ağız hissəsində əyrilik | Adi gözlə görünən əyrilik | Kəsici dəzgahda qüsurun olması | 50 –100% |
| Emal nöqsanları | | | |
| Naxış kəsiyi | Naxış salma zamanı almaz naxışların tam kəsiyi | | |

**Şüşə məmulatlarının tədqiqi** zamanı məhsulun keyfiyyətinə təsir edən şərtlər və faktorlar tədqiq olunur. Bu analizə zay məhsulun səbəbləri və növlərinin analizi, keyfiyyət göstəricisinin texnoloji prosesinin müxtəlif amillərinin təsirinin analizi daxildir. Bunlara ölçülən parametrlərin yayılması haqqında məlumat verən bölgü histoqrammalarını, parettonun diaqramlarını, İsikovanın sxemini aid etmək olar. [13]

Parettonun diaqramı defektin səbəbləri haqqında informasiya verir. Defektin aradan qaldırılması üçün görülən hər hansı bir tədbirin əsasında dəqiq informasiya olmalıdır.

Məhz belə informasiyanı Parettonun diaqramı verir. Üçüncü şəkildə göründüyü kimi, səbəbləri aradan qaldırarkən, texnoloji nizamın pozulması və uğursuz konstruksiya ilə əlaqədar defekti bir xeyli azaldır. Diaqram üzrə defektin

növləri üzrə itkiləri (şəkil 3, b) təyin etmək çətin deyil. Ona görə ki, çox böyük itkilər keyfiyyətsiz materiallardan istifadə etdikdə olur. Ona görə də ilk növbədə defekt materiallardan istifadə etməyin qarşısı alınmalıdır. Bunun üçün brakın növlərini öyrənmək lazımdır.




**a)**




**b)**

**Şəkil 3. Paretto diaqramı:**

*a) defektin səbəblərinin növləri üzrə: 1 – sahədə texnoloji nizamın pozulması; 2 – texnoloji ləvazimatın uğursuz konstruksiyası; 3 - .................. məmulatlarda defektlər; 4 – pis işıqlanma; 5 – digər səbəblər;*

*b) Defektin növləri üzrə itkilər: 1 – ölçülərə görə defekt; 2 – materialların defekti; 3 – qalvanik örtüyün defekti; 4 – parçimləmənin defekti; 5 – defektin digər növləri.*

Bu misallar sübut edir ki, Paretto diaqramının köməyi ilə brak hallarının sayını, brakın növlərini, brak zamanı itkiləri, vaxt sərf olunmasını, materialların istifadəsi brakı aradan qaldırmaq üçün analiz etmək olar. Bu diaqramla həmçinin istehlakından gələn reklamın məzmununu, texnoloji avadanlığın sınmasını və qəzaların səbəbini, texnoloji nizama riayət edilməməsinin səbəbini, istehsal prosesində keyfiyyətə sərf olunanları analiz etmək olar.

İsakova sxemi (şəkil 4) məhsulun defektləri ilə və itkilərin azalması ilə mübarizənin səbəb və nəticələri diaqramıdır. Defektlər ya bilavasitə defektli məhsulun düzəlməsi ilə, ya da bu defektləri əmələ gətirən səbəblərin qarşısını almaqla aradan qaldıra bilər.



**Şəkil 4. İsakovanın sxemi**

Məhsulun defektlərinin qarşısı alınması üzrə işlərin təşkili defektlərin əmələgəlmə səbəblərini analiz etmək tələb edir. İsakovanın sxemi bu öyrənilən problemə təsir edən amilləri və şərtləri aşkarlamağa, qruplaşdırmağa imkan verir. Şəkil 4-də ən vacib amillər uzun oxlarla (.......... səbəblər), az əhəmiyyətlilər – qısa oxlarla işarə olunub. [14]

Analiz zamanı gərək bütün amillər aşkarlansın və qeyd olunsun. Hətta ən kiçik amillər belə qeyd olunmalıdır. Çünki sxemin məqsədi qoyulmuş problemin həlli üçün düzgün və effektli üsul tapmaqdır. Təcrübədə elə hallara rast gəlmək olur ki, ilk növbədə az əhəmiyyətli səbəbləri aradan qaldırmaqla yaxşı nəticələr əldə etmək olar.

Sxemin aşağıdakı qaydada tərtibi və analizi tövsiyə olunur:

- problemin seçilməsi – dar yerin;
- ən əsas amillərin aşkarlanması;
- əsas amillərin açılması – bu amillərə təsir edən müxtəlif səbəblərin təsiri;
- müəyyən perioda korrektə oluna bilən səbəblərin müəyyən edilməsi;
- korrektə olunası faktorların hansı səviyyəyə gətirilməsini müəyyən etmək;
- korrektə olunası amillərin müəyyən olunmuş səviyyəyə gətirilməsində konkret məsul şəxslərin, istehsal sahələrinin, şöbələrin aşkarlanması;
- korrektəedici amilləri izləmək məqsədilə sənədin formasının işlənib hazırlanması və bu informasiyanın dəqiqliyinə cavabdeh olan şəxslərin müəyyən edilməsi;
- sonrakı işlərin planının tərtibi – perspektiv tədbirlərin işlənib hazırlanması və məsul şəxslərin müəyyən edilməsi.

# III NƏZƏRİ HİSSƏ

## 3.1. ŞÜŞƏ MƏMULATLARININ TƏSNİFATI VƏ ÇEŞİD XARAKTERİSTİKASI









Şəkil 1[17]

İstehlak malları içərisində mühüm yerlərdən birini də şüşə məmulatlari tutur.Şüşə məmulatları əsasən də məişətimizdə geniş tətbiq olunur.Şəkildə göstəriln mətbəx şüşə qabları rəngli şüşədən hazırlanmışdır.



Şəkil 2[17]



Şəkil 3[17]

Şüşədən hazırlanmış məişət məmulatları tərkibinə, istehsal prossesinə, rənginə, bəzəyinə, formasına, ölçüsünə və estetik görünüşünə görə təsnifləşdirilir.



Şəkil 4[17]



Şəkil 5[17]

Kimyəvi tərkibinə görə şüşə qablar natrium-əhəngli, kalium-əhəngli, bor-silikatlı, qurğuşunlu və s. olur.Formasına görə də şüşələr oval, armudvari, yastı və s. olurlar.



Şəkil 6[17]




Şəkil 7[17]

Görünüşü,naxışı və bəzəyinin mürəkkəbliyinə görə məişət-şüşə məmulatları əsasən də üfürmə yolu ilə alınan mallar çox geniş çeşidə malikdirlər.



Şəkil 8[17]



Şəkil 9[17]

Təyinatına görə şüşə məmulatlarının qrupları çox genişdir. Həm məişət qabları, həm bədii dekorativ qablar, həm mətbəx qabalrı, həm təsərrüfat qabları, həm də yeməkxana və çay qablarına bölünür.



Şəkil 10[17]



Şəkil 11[17]

Hal-hazırda şüşə məmulatları elə geniş çeşiddə hazırlanır ki, onların forması və rəngləri süfrələrə estetik gözəllik verməsi ilə yanaşı, həm də çox praktikidir.



Şəkil 12[17]



Şəkil 13[17]

Məişət şüşə qabları həm ədədi məmulatlara,həm də dəstlərə ayrılır.Şəkildən göründüyü kimi dəst məmulatlar xüsusi tərtibatına görə eyni tərkibli və eyni şüşədən hazırlanır.



Şəkil 14[17]




Şəkil 15[17]

Hal hazırda dekorativ şüşə məmulatları bizim süfrələrimizdə çox mühim yer tutur.Əsasən də dekorativ qablar rəngli şüşələrdən olur.



Şəkil 16[17]



Şəkil 17[17]

Şüşə məmulatlarında ən çox istifadə olunan şüşələr rəngli şüşələrdir.Şüşələrin rəngli olması əsasən onların tərkibində olan metal oksidlərinin rəngi ilə əlaqədardır.



Şəkil 18[17]



Şəkil 19[17]

Şüşə məmulatlarının içrisində naxışlı şüşələrin xüsusi yeri var.Naxışlı qablar əsasən dekorativ üslubda istehsal olunan şüşə məmulatlarında daha çox istifadə olunur.



Şəkil 20[17]



Şəkil 21[17]

Şüşə məmulatlarından məişətimizdə ən çox çay dəstlərində istifadə edirik.Şüşə məmulatları istehsal olunan zamandan demək olar ki,onu ancaq büllur əvəz etmişdir ki,o da şüşənin bir növüdür sadəcə tərkibində qurğuşunun faizi çoxdur.



Şəkil 22[17]



Şəkil 23[17]

Bir müddət plastik kütlədən olan məmulatlar mətbəximizə yol açsa da şüşə məmulatları öz gigiyeniklik xassəsinə görə o qabları məbəximizdən tamamilə uzaqlaşdırdı.




Şəkil 24[17]



Şəkil 25[17]

Şüşə məmulatlarının hal-hazırda Azərbaycan bazarında xüsusi çəkisi var.Əsasən respublikamıza bu məmulatlar İrandan,Türkiyədən,Çin Xalq Respublikasından və Rusiya Federasiyasından daxil olur.



Şəkil 26[17]



Şəkil 27[17]

Fransadan respublika bazarına daxil olan şüşə məmulatlarından biri də “Luminarc” deyilən məmulatlardır ki, bu mallar mexaniki və termiki davamlılığa görə öndə gedən şüşə çeşididir.



Şəkil 28[17]



Şəkil 29[17]

Şəkildə görünən bakallar ən çox satılan və ən çox istifadə olunan şüşə çeşididir və bu bakallar ölçüsünə,formasına,hündürlüyünə və tutumuna görə də çox müxtəlifdir.



Şəkil 30[17]




Şəkil 31[17]

Şəkildə görünən çay qabları eyni funksiya daşısa da istehsal üsuluna görə biri-birində kəskin fərqlənirlər.Yuxarıdakı qablar əl işi, aşağıdakı isə ştamplanma üsulu ilə istehsal olunub.



Şəkil 32[17]



Şəkil 33[17]

Bəzən şüşə qablar mətbəximizdə metal və keramikanı layiqincə əvəz edir.Artıq şüşədən xörək bişirmək üçün,sobaya qoymaq üçün qazan dəstlərinin istehsalı sürətl artmaqdadır.



Şəkil 34[17]



Şəkil 35

Bəzən şüşə qabların üzərində müxtəlif bəzədilmə əməliyyatları aparılır ki,bu da rəssamlar tərəfindən həyata keçirilir və əhali tərəfindən çox yüksək qiymətləndirilir.



Şəkil 36[17]



Şəkil 37[17]

Şüşədən hazırlanmış kompot və çərəz qabları çeşid müxtəlifliyinə görə ön sıralarda gedir



Şəkil 38[17]



Şəkil 39[17]

Müxtəlif metal oksidləri əlavə etməklə müxtəlif rəng çalarları olan şüşə məmulatları bazarda daha çox istehlakçı özünə cəlb edir.



Şəkil 40[17]



Şəkil 41[17]

Şüşə məmulatları kimyəvi tərkibinə görə insan orqanizmi üçün heç bir təhlükə törətmir,buna görə də bu məmulatlar hər zaman istehlakçılar tərəfindən məmnuniyyətlə istifadə olunur.



Şəkil 42[17]



Şəkil 43[17]

Pireks qablar- bu qablar termiki davamlılığı çox yüksək olduğu üçün hal-hazırda bütün dünyada ən çox istifadə edilən şüşə qabdır.Bu qabların istehsalı 1915-ci ildən başlanmışdır.



Şəkil 44[17]



Şəkil 45[17]



Şəkil 46[17]

İstehsalçıdan istehlakçıya kimi olan hərəkət prosesində malın müəyyən miqdarı istehsalçının hazır məhsullar anbarında, göndəriş və təyinat məntəqələrində, nəqliyyat vasitələrində, vasitəçi təşkilatların, istehlakçının anbarında cəmləşdirilir. Mal burada qatmaqarış (xaos halında) deyil, "çeşid" anlayışına görə uyğun əlamətlərinə müvafiq olaraq yerləşdirilir.

Müxtəlif növlü, sortlu, hər hansı bir əlamətinə (təyinatına, rənginə, ölçüsünə, xammalına, istehsal vasitəsinə və s.) görə birləşmiş malların siyahısı, müəyyən cəmi **çeşid** adlanır. Çeşid anlayışı mal kütləsinin tərkibinin xarakteristikası üçün tətbiq edilir.

İqtisadi nöqteyi-nəzərdən çeşid mal istehsal edən sahələrin və müəssisələrin fəaliyyətinin nəticələrini xarakterizə edən sahələrarası və sahələr nisbətinin mal təklifinin tərkibində hər şeydən əvvəl, əksidir. Daha doğrusu, bu konkret məhsulların tələb və təklifinin tarazlaşdırılması dərəcəsini təyin edən əsas amillərdən biridir. Ancaq assortiment həm də daha çox ümumi əlamətlərə görə təşkil edilmiş istənilən çoxluğun müxtəlif səviyyəli ayrı-ayrı kateqoriyalara və manqalara məntiqi paylanmasını təmsil edir. Bunun sayəsində çeşid ümumi əlamətlərə malik olan malların müxtəlif növlərinə və onların qruplarına bələd olmağa imkan verir, tələbatın öyrənilməsi, planlaşdırılması, proqnozlaşdırılması, uçotunun və şərait yaradır.

Mal çeşidi böyük sosial-iqtisadi əhəmiyyətə malikdir. Belə ki, alıcı tələbatının tam ödənilməsi və Bazar subyektlərinə ticarət xidmətinin keyfiyyəti ondan asılıdır. Ooptimal çeşid ictimai istehsalın effektliyinin əhəmiyyətli dərəcədə yüksəlməsini, əmək və maddi resursların qənaətcil işlədilməsini təmin edir.

Malların çeşidi müəyyən ölçüdə müxtəlif cür şəkildə təqdim oluna bilər. ancaq növünün seçilməsi istehlak dəyərindən, istehlakçıların bu və ya digər mala üstünlük verməsindən asılıdır.

Malların çeşidi genişliyi, dərinliyi, tamamlığı, yeniləşmə dərəcəsi, strukturu ilə xarakterizə olunur.

***Çeşidin genişliyi*** bu və ya digər təyinatlı məmulatın miqdarını bildirir.

***Çeşidin dərinliyi*** məmulatın konkret növünün müxtəlifliyinin miqdarını, malların hər bir qrupunda pozisiyaların miqdarını bildirir. Məsələn, istehsalat – texniki təyinatlı məmulatla topdansatış ticarəti müəssisəsi hal-hazırda realizə edilmək üçün tikinti materiallarının 5 növünə malikdir. Bu isə 3 cürdür. Buradan da belə çıxır ki, çeşidin dərinliyi 15-ə bərabərdir.

***Çeşidin tamamlığı*** (bütövlüyü) malın müxtəlif növlərinin faktiki miqdarının onun müvafiq preyskurantla və ya spesifikliyi ilə nəzərdə tutulan miqdarına münasibətə görə təyin olunur. Məsələn, spesifikliyinə görə metalın 6 müxtəlif növü nəzərdə tutulur. Amma faktiki olaraq satışa 4-ü daxil olur. Deməli, çeşidin bütövlüyü 0,66-dır.

***Çeşidin yeniləşmə dərəcəsi*** satışa daxil olan yeni məmulatların ümumi həcmində xüsusi çəkisini bildirir. Məsələn, xırda topdansatış mağazası ətriyyat məmulatlarının 25 növünü realizə edir. Onlardan 7-si əvvəllər satışda olmayanlar, yenidirlər. buradan da yeni məmulatların xüsusi çəkisi 0,28-dir.

***Çeşidin strukturu*** əmtəə dövriyyəsinin ümumi məbləğində mal qruplarının, yarımqrupların, malların növlərinin və müxtəlifliyinin xüsusi çəkisi ilə xarakterizə edilir. Əgər çeşidin strukturu istehlak tələbatını əks etdirmirsə, onda satılmayan, işə getməyən malların ehtiyatı yaranır, istehlakçılar tərəfindən isə tələb edilən başqa mallara süni deficit yaranır.

Rasional formalaşdırılmış çeşid malların realizə edilməsini tezləşdirir, lazım olan malın əldə olunmasına, axtarışlara sərf olunan əməyi və vaxtı azaldır. Nəticədə isə potensial istehlakçıların tələbatını ödəməyə kömək edir.

Mallar müxtəlif dövriyyə qabiliyyətinə malikdirlər. ona görə mal dövriyyəsinin və mal ehtiyatlarının çeşid strukturu heç vaxt üst-üstə düşmür. Tədrici dövriyyə malları həmişə mal ehtiyatlarında yüksək xüsusi çəkisi olur.

Sənaye (istehsalat) və ticarət çeşidi olur. Müəssisənin yaxud sənayenin müəyyən sahəsinin buraxdığı malların siyahısına daxil olanlar sənaye çeşidinə aiddirlər. sənayenin müəyyən sahəsinin çeşidi ayrıca bir müəssisənin çeşidinə nisbətən əhəmiyyətli dərəcədə genişdir. Tədavül sahəsində olan malların nomenklaturası, o cümlədən topdansatış və pərakəndə müəssisələrində olanlar **ticarət**

**çeşidi** adlanır. Ticarət çeşidi, bir qayda olaraq, sənaye……… Genişdir. Ona görə ki, özündə müxtəlif sahələrin mallarını, eləcə də xarici malları cəmləşdirir. Ticarət çeşidi müəssisənin (bazanın, mağazanın, anbarın) tipindən, regiondan, istehsal müəssisələrin ixtisaslaşmış xidmətindən, əhalinin demoqrafik xarakteristikasından asılıdır.

İstehsalat çeşidinin ticarət çeşidinə çevrilməsi hazır məmulatın aradakı anbarlarda, ya da alanın ünvanına məmulatın göndərilmə məntəqəsinin anbarında baş verir. Malların çeşidi sözün tam mənasında istehsal-texniki təyinatlı və dövriyyə sahəsində olan xalq istehlak mallarının tərkibini xarakterizə edir. Malların çeşidi sözün dar mənasında topdansatış və pərakəndə ticarətin konkret müəssisəsində, onların şöbələrində, bölmələrində, iş yerlərində malların seçilməsini xarakterizə edir.

Məhdud ixtisaslı profilə malik ticarət müəssisələri bir mal qrupunun (məsələn, metal, ehtiyat hissələri, tikinti materialları və s.), yarımqrupun (qalınlövhə polad, yük maşınlarının ehtiyat hissələri, taxtapuş material) və yaxud növlərin (konstruktor poladı, avtomobillərin ehtiyat hissələri, ruberoid) mallarını satır.

Universal profilli ticarət müəssisələri istehsalat-texniki təyinatlı yaxud fərdi istifadə üçün, həmçinin ərzaq üçün nəzərdə tutulan geniş çeşidli malları satır.

Mallar sadə və mürəkkəb çeşidli mallara ayrılır.

***Sadə çeşidli mallar*** təcrübədə bir növ daxilində ayrılmırlar, bir qayda olaraq, təyinatına, fasonuna, ölçüsünə və digər əlamətlərinə görə (saatlar, dəftərlər, karandaşlar, divanlar, yerli yüngül avtomobillər və s.).

***Mürəkkəb çeşidli mallar*** (geyim, parçalar, xırdavat, ehtiyat hissələri, metal, təsərrüfat malları və s.) bir növ daxilində təyinatına görə, fasonlarına, ölçülərinə, konstruksiyasına, materialına və digər əlamətlərinə görə ayrılır.

Mallar eyni istehsalat mənşəyin əlamətinə görə (lak-rəng materialları, metal, parçalar, trikotaj məmulatları) yaxud istehlak təyinatlı əlamətinə görə (təsərrüfat malları, geyim, mədəni mallar) qruplarda birləşirlər. belə bölgü **qruplaşmış çeşid** adlanır.

Hər bir mal qrupu dairəsində malların müxtəlifliyi qrupdaxili (geniş) çeşidin nomenklaturası adlanır. Məsələn, "təsərrüfat malları" qrupu tərkibində yuyucu vasitələr, kimyəvi maddələr, dəmir məmulatları, ev əşyaları və s. daxil ola bilər.

Elmi-texniki tərəqqi ilə, yeni xammal materiallarının meydana gəlməsi və onların işlədilməsi, yeni texnologiyanın peyda olması ilə, bazar konyukturunun dəyişməsilə, əmtəə bazarında rəqabətin güclənməsi, istehlakçıların alıcılıq qabiliyyətinin artması ilə əlaqədar malların çeşidi daim yeniləşməlidir.

Topdansatış və pərakəndə ticarət müəssisələrində mal çeşidi bazarın tələblərinə uyğun olaraq gərək optimal xarakter daşımalıdır. Bununla əlaqədar olaraq, hər bir müəssisə üçün fasiləsiz ticarəti təmin edə bilən malların çeşid siyahısı olmalıdır. Dövriyyə sahəsində malların nağd çeşidi, mahiyyətcə malların təklif olunmasıdır. Buradan da belə çıxır ki, çeşid ona olan faktiki tələbatdan daha geniş olmalıdır.

Hər bir mal konkret istehlakçıya yönəldilməlidir. Bu vacib Bazar prinsipinin həyata keçirilməsi çeşid konsepsiyasına dayaqlanır.

Çeşid konsepsiyası mal təklifinin rasional çeşid strukturunun istiqamətlənmiş quruluşudur. Aşağıdakılar əsas götürülür:

- bazarın konkret subyektlərinin istehlak tələbləri;
- maliyyə, maddi, texnoloji, əmək ehtiyatlarının daha effektli istifadəsini təmin etmək.

çeşid konsepsiyasının əsas məqsədi malın konkret növləri, nomenklaturası, qrupları üzrə Bazar tələbatının və mal təklifinin həcmi və strukturuna müvafiq istiqamətlənmiş qərarın işlənib hazırlanmasıdır. Çeşid konsepsiyası ümumiləşmiş göstəricilər sistemi şəklində ifadə olunur. Bu göstəricilər mal çeşidinin rasional inkişaf imkanlarını, konkret mallara qiymətlərin səviyyəsini və nisbətini xarakterizə edir. Çeşid konsepsiyası sənayeni və aqrar-sənaye kompleksli müəssisələrini topdansatış və pərakəndə ticarətin sifarişində nəzərdə tutulan tələbat strukturunu təmin edən malların buraxılışına istiqamətləndirir. Belə konsepsiya ölkə ərazisində istehsalın rasional yerləşməsinə, kommersiya-təsərrüfat

əlaqələrinin təkmilləşməsinə, topdansatışda və pərakəndə satışda ticarət çeşidinin hazırlanmasına kömək edir.

Malların çeşidinin rasional formalaşmasına bazarın subyektlərinin çeşid siyasəti də kömək edir.

**Çeşid siyasəti** bazarın malla təmini sahəsində malların nomenklatura strukturunun, ticarətin istehsalatla, kommersiya-təsərrüfatla bağlı əlaqələrinin optimallaşmasına yönəlmiş malların çeşidinin inkişafının uzunmüddətli proqramları əsasında qurulur. Bu zaman nəzərdə tutulur:

- istehlakçıların müxtəlif qruplarının tələbatı;
- müxtəlif malların istehsalı, onlara qoyulan qiymətlərin səviyyəsi və nisbəti üçün maddi, maliyyə resurslarının olması;
- istehlakçıların müxtəlif qrupları üçün məmulatların əsas istehlak parametrlərinin olması.

Bütün bunlar istehsalın inkişafı və Bazar üçün vacib olan müəyyən məhsulun realizə edilməsi üçün başlanğıc nöqtəsidir.

Çeşid siyasətinin hazırlanması üçün mal bazarda ardıcıl olaraq bir sıra mərhələlərdən keçdiyinə görə, necə deyərlər, "malın həyat dövrü"nün tədqiqatı vacibdir. Malın həyat silsiləsinin hər dövrünün öz xüsusiyyətlərindən asılı olaraq malların seçilməsi və çeşidin planlaşdırılması aparılmalı, qiymətlərin səviyyəsi və nisbəti qoyulmalı, gəlirə qiymət qoymaq, satışın aktivləşməsi üçün müvafiq forma və metodlardan istifadə etmək və s. lazımdır.

Çeşid siyasəti bütün səviyyələrdə bazarın ayrı-ayrı subyektlərinin və bütövlükdə dövlətin maraq çərçivəsində malların çeşidinin idarə olunması üzrə kompleks tədbirlərdən və baxışlar sistemindən ibarətdir.

Ölkə miqyasında çeşid siyasəti çeşidin ictimai və elmi əsaslarının təyininə, onun hər bir mal qrupunun optimallaşmasına çevrilir. Bu zaman çeşid pozisiyalarının genişlənməsinə, eləcə də ixtisara salınmasına, keyfiyyətcə yeni əsasda çeşidin təzələnməsinə yol verilir. Bazar iqtisadiyyatı şəraitində çeşid siyasəti hər şeydən əvvəl, Bazar subyektləri tərəfindən aşağı tələbata malik məmulatın çeşidinin ixtisara salınması, xammalı, əmək, maliyyə resurslarının daha

yüksək tələbatlı məmulatın istehsalına sərf olunması hesabına çeşidin ixtisarını nəzərdə tutur.

Çeşid siyasəti heç də daimi olmur. Malların istehsalı artdıqca, topdansatış və pərakəndəsatış ticarəti inkişaf etdikcə, mal məmulatı istehlakçılarının sosial-iqtisadi səviyyəsi yüksəldikcə, çeşid siyasəti də dəyişir. Bazar subyektlərinin uğurlu kommersiya-təsərrüfat fəaliyyəti mal çeşidinin optimallaşdırılmasını tələb edir. Bununla bağlı, onun formalaşmasına böyük diqqət verilir.

**Çeşidin formalaşması** termini bazar subyektlərinin tələbatına uyğun olan, bu tələbatı daha dolğun qane edilməsinə yönəldilən müxtəlif mal qruplarının növlərinin, ölçülərinin, fasonlarının və digər müxtəlifliyinin yığımı deməkdir. Yaxud başqa sözlərlə: müəyyən obyektdə, istehsalat və ya ticarət müəssisələrində istehsal və ya ticarət üçün malların cəmləşməsini yaradan müəyyən qaydada malların nomenklaturasının işlənib hazırlanması və qurulması çeşidin formalaşmasını bildirir. Çeşidin formalaşmasının köməyi ilə ivə dövriyyə sahələrindəki, mühüm qarşılıqlı əlaqədar olan məsələlər həll olunur. Çeşidin qoyulması yolu ilə müəssisə öz fəaliyyətinin ixtisaslaşmasını və konsentrasiyasını müəyyən edir, malların istehsalına nisbətən aşağı maya dəyərli, müvafiq keyfiyyətli məmulatların buraxılması nəzərdə tutulan lazımi mənbələr yaradır. Bu maddi-texniki bazadan, işçilərin vaxtından daha yaxşı istifadəyə, kommersiya-təsərrüfat əlaqələrinin təkmilləşməsinə kömək edir.

İstehsal olunan məhsulun, topdan və pərakəndə satışın əmtəə dövriyyəsinin həcmi və strukturu, müəssisələrin kommersiya-təsərrüfat göstəricilərinin keyfiyyəti malların çeşidinin formalaşmasından və bu çeşidin nisbətən sabitliklə təmin olunmasından birbaşa asılıdır.

Malların çeşidi minlərlə, hətta on minlərlə adlı məhsulun cəmləşməsindən ibarətdir. Müxtəlif malların belə bir həcmində səmtləşdirmə üçün malların elmi təsnifatından istifadə olunur.

Mal çeşidinin formalaşması eyni zamanda çeşidi idarəetmə metodlardan və ya vasitələrdən biridir. Çeşidi formalaşdırarkən, ona bu və ya digər malları daxil edərkən və ya xaric edərkən çeşidin genişlənməsini, ixtisara salınmasını,

yeniləşməsi idarə edirlər. Mal çeşidinin formalaşması mal ehtiyatlarının əmələ gəlməsi onların qorunması ilə sıx bağlıdır. Nəticədə bu ehtiyatların rasionalizə edilməsi (səmərələşdirilməsi) üzrə mürəkkəb məsələ yaranır. Bu məsələnin həlli istehsalın və mal dövriyyəsinin minimal xərcləri şəraitində bazaar subyektlərinin istehlak tələbatını daha tam qane edilməsinə yönəldilib.

Bazaar tələb edir ki, malın hər bir hərəkət zəncirində və xüsusilə də topdan və pərakəndə satış ticarəti müəssisələrində malların səmərəli çeşidi təqdim olunsun. Buna nail olmaq tamamilə mürəkkəbdir. Ona görə də ilk növbədə mütləq çeşidə nail olmağa can atmaq lazımdır (çeşidin minimum). Bu zaman konkret şəraiti nəzərə almaq lazımdır: mal qruplarının, malların ayrı-ayrı növlərinin spesifikasını və xüsusiyyətlərini, əmtəə dövriyyəsinin həcmi və strukturunu, anbar və ticarət meydanlarının ölçülərini, anbarın texnoloji avadanlığının olması və vəziyyətini və b. Satışda müəyyən dərəcədə mütləq çeşidli malların olması istehlakçıların müvafiq məhsulla təmin edilməsinə zəmanət verir. Buradan da belə çıxır ki, mütləq çeşidin sabitliyini təminetmə daima iş aparmaq vacibdir. Ona görə ki, hazırki zamanda satışda konkret malın yoxluğu, mahiyyətcə alıcıların tələbatını ödəməkdən imtina etmək deməkdir.

Lazımi dərəcədə formalaşdırılmış mütləq çeşid konkret ticarət müəssisəsinin bütün əməliyyat-ticarət fəaliyyəti üçün böyük əhəmiyyətə malikdir. Mütləq çeşid müəssisənin əsasını təşkil edir və işinə təşkilatçılıq gətirir. Bununla birlikdə mütləq çeşid heç də həmişə satıcının imkanlarını və həmçinin mallara olan tələbatı əks etdirmir. Təcrübədə tez-tez elə ticarət müəssisələrinə rast gəlmək olur ki, orada çeşid minimum elə mallardan ibarətdir ki, onları stabil çeşidə nail olmaq üçün əldə etmək asandır. Lakin çeşid minimumun xeyrinə olaraq ticarət anbarları az tələbat olan mallarla dola bilər. Buna görə də mütləq çeşid dəyişən xarakterli olmalı, periodik olaraq təzədən nəzərdən keçirilməlidir. Nisbi sabitlik çeşidin vəziyyətinə lazımi nəzarət vasitəsilə əldə olunur, yəni sistematik olaraq realizə olunmaq üçün malların olmasını yoxlamaq, müvafiq göstəriciləri təyin etmək lazımdır.

Xüsusilə, faktiki çeşidin mütləq çeşidə olan münasibətində öz ifadəsini özünü ifadə edən çeşidin sabitlik əmsalı belə göstəricilərdən ola bilər. Bu əmsalı

bütövlükdə ticarət müəssisəsi üzrə həm də ayrı-ayrı mal qrupları üzrə təyin etmək olar. Belə əmsalı malların növlərinə görə və onların müxtəlif növlərinə ayrı-ayrılıqda yaratmaq məqsədilə uyğundur. Birinci halda istehlak tələbatında əvəzolunmaz malların çeşidinin sabitlik dərəcəsi qeyd edilir. İkinci halda isə qarşılıqlı əvəz olunan malların çeşidinin sabitlik dərəcəsi qeyd olunur. Malların çeşidi aşağıdakı prinsiplər nəzərə alınmaqla formalaşmalıdır:

- xidməti və potensial istehlakı mallarının tələbat xüsusiyyətlərinin çeşiddə əks olunması;
- alıcılar tərəfindən malların seçilməsi və alınmasında komplektliyin təmini;
- ticarət müəssisəsi üçün qəbul olunmuş çeşid profilinə riayət edilməsi;
- daimi tələbat olan malların çeşidinin lazımi dərəcədə tamlığını və sabitliyini təmin etmə;
- sadə çeşidin əvəzolunmayan və çətin əvəzolunan malların siyahısının tərtibi;
- qarşılıqlı əvəzolunan malların təyini;
- ticarət müəssisəsinin ixtisaslaşma səviyyəsindən asılı olaraq hər bir qrup və yarımqrup üzrə malların növlərinin genişliyini lazımi dərəcədə təmini;
- yeni mallar hesabına çeşidin genişlənməsi.

Ticarət müəssisəsinin əmtəə dövriyyəsinin artmasına, əmtəə dövriyyəsinin tezləşməsinə, gəlirin yüksəlməsinə kömək edən şəraitin əldə olunması. Bu şərait malların səmərəli seçilmə yolu ilə əldə olunur.

Malların çeşidinin formalaşması 2 mərhələdə baş verir: birinci mərhələ qrup halında çeşidlənməni nəzərdə tutur, yəni ticarət müəssisəsi tərəfindən realizə ediləcək malların siyahısı, məbləği və ya əmtəə dövriyyəsinin ümumi həcmində hər bir qrupun xüsusi çəkisinin göstərilməsi ilə. Bu problemin həlli malların çeşidinin formasına təsir edən amillərin analizi ilə bağlıdır. İkinci mərhələ qrupdaxili çeşidi (ətraflı) təyin edir, yəni hər bir mal qrupu daxilində konkret malların və onların müxtəlif növlərinin nomenklaturasını müəyyən edir. Malların çeşidlənməsinin səmərəli formalaşmasının elmi əsası obyektiv fəaliyyət göstərən amilləri dayaqlanır. Bu amillərin istifadəsi qarşıya qoyulan məsələni uğurla həll etməyə imkan verir. Mal çeşidinin formalaşmasının əsas məqsədi bazaar

mexanizminin mühüm elementi olan, alıcı tələbatını daha dolğun təmin etməkdən ibarətdir. Bu tələbatda istehsalat problemləri üzrə ictimai münasibətlər, əmtəə dövriyyəsi, ictimai əmək məhsulunun realizə olunması cəmləşmişdir. Tələbat bazarın həcmini müəyyən edir. Yəni təklif olunan malın o hissəsini ki, bazaar subyektlərinin pullu vəsaitlərinə mübadilə olaraq realizə edilməlidir. Ümumiləşmiş halda tələbat – bazaar çıxarılmış konkret ödəmə qabiliyyətli ehtiyacı ifadə edir. Mal təklif olunan zaman bu ehtiyaclar qane olunur. Ödəmə qabiliyyəti tələbatın əsas xüsusiyyətidir. Ancaq bu xüsusiyyət onu tükəndirmir.

Belə ki, ehtiyacı natural formada əks etdirən qabiliyyət də tələbatın mühüm xüsusiyyətlərindən biridir. Bununla tələbat təkcə müəyyən məbləğdə pulu təyin etmir, həm də funksional istehlak xassələri olan konkret mallara, istehlak dəyərləri qarşısında qoyulan tələblərin cəmləşməsidir.

**Malın istehlak qiymətlənməsi** – alıcıların konkret məmulata və ya onun müxtəlif funksional və estetik xassələrinə obyektiv münasibətidir (müsbət, mənfi, neytral): bazarda malın seçilməsi və alınması prosesində mal təklifinin tərtibinin nüfuzluu, möhkəmliyi, qiymətlərin mümkünlüyü, istifadədə rahatlığı, dəbdə olması və digər tələblərə görə. Malın istehlak qiymətlənməsi həm birbaşa üstünlük verilmə və ya konkret məmulatın alınmasından imtina formasında təzahür edə bilər. Həm də mal çeşidi ilə tanış olarkən potensial istehlakçının eyni təyinatlı mallar cərgəsində məmulatın üstünlüyü, nöqsanları haqqında fikirlər formasında da ola bilər. Beləliklə, tamamilə aydındır ki, malların çeşidinin formalaşmasında əsas amillərdən biri də tələbatdır. Tələbatın daşıyıcısı kimi istehlakçı müəyyən alıcılıq qabiliyyətinə (ona lazım olan malların əldə olunması mümkünlüyünə) malikdir. Bu qabiliyyətlə o, öz ehtiyacını ölçür, bu zaman malın ən vacib istehlak xassələrinə və qiymətə yönəlir. Bazar münasibətlərinin inkişafı ilə mal istehlakçılarının fəallığı əhəmiyyətli dərəcədə yüksəlir. Mal təklifinin tərkibinə onların tələbləri daha konkret və seçici olur.

Tələbat öyrədir ki, hansı malları istehsal etmək və satışa qoymaq lazımdır, tələbat çeşidə, malların keyfiyyətinə tələblərini irəli sürür. Deməli, tələbatın öyrənilməsi mal çeşidinin formalaşması zamanı düzgün istiqamət verə bilər.

Mal çeşidinin formalaşması prosesinə təkcə müəyyən mal məmulatına olan tələbatın həcmi, strukturu, vaxtaşırlığı deyil, həm də tələbatın təzahür xarakteri də təsir göstərir. Bu nöqteyi-nəzərdən tələbatın 3 forması müəyyən edilir:

- möhkəm formalaşmış (xüsusi) tələbat açıq tələb şəklində verilir. Bu tələbat malın başqasıyla, hətta eyni tipli malla əvəz olunmasına yol verilir;
- alternativ tələbat (seçmə üzrə tələbat) malların geniş əvəz olunmasına imkan verir. Bir sıra mallarla, həm eyni tipli, həm də müxtəlif tipli mallarla qabaqcadan tanış olduqdan sonra, qəti şəkildə formalaşır;
- impulsiv tələbat (qeyri-müəyyən, gizli) tələbatın elə növüdür ki, o, mal təklifinin təsiri altında meydana gəlir və formalaşır.

Xarakterik haldır ki, əsas malın alınması əlavə malın da alınmasına meyl oyadır. Belə tələbat əsasən istehlakçıların tanış olduqları yeni mallarla münasibətdə özünü göstərir.

Nəzərə almaq lazımdır ki, tələbat tez-tez bir maldan digər mala keçən malın çeşidinin genişlənməsini və təzələnməsini tələb edən dinamik hadisədir. Malların çeşidinin formalaşması zamanı çeşidin genişliyi (onun strukturunun iriləşməsi) nəzərə alınır. Belə ki, mallara olan tələbat həm region, xalq təsərrüfatının bütövlükdə miqyasında, həm də ayrı-ayrı müəssisələr çərçivəsi daxilində irəli sürülür. Bununla əlaqədar olaraq makrotələbat və mikrotələbat adlı anlayışlar meydana gəlib.

**Makrotələbat** bazar subyektlərinin istehsalın müəyyən sahəsinin məhsuluna olan birləşmiş tələbatını bildirir, yəni malların iriləşmiş növ qruplarına differensial tələbat. Burada malların çeşidinin struktur genişliyi izlənilir.

**Mikrotələbat** konkret məmulata, onların müxtəlifliyinə, modifikasiyasına olan tələbatdır. Bu halda mal çeşidinin strukturunun dolğunluğuna üstünlük verilir.

Malların çeşidinin formalaşması amili kimi onun sabitliyi mühüm yer tutur. Bununla əlaqədar malların nomenklaturasını şərti olaraq 2 hissəyə bölmək olur: daimi və dəyişən.

**Daimi çeşid** maksimal tam çeşiddə olmalı, möhkəm formalaşmış tələbatın olmasına uyğun gəlməlidir. Malların hər hansı növlərinin yoxluğu qeyri-kafi tələbata gətirib çıxarır.

**Dəyişən çeşid** alternativ və impulsiv çeşidlə bağlıdır. Bu da çeşidin müxtəlifliyinə, onun sistematik təzələnməsinə kömək edir. Mal çeşidi dəyişən tələbata cavab verən dəyişkən həcmi özündə saxlamalıdır. Lakin eyni zamanda çeşid daimi həcmə malik olmalıdır. Ona görə ki, o fasiləsiz olaraq yenidən nəzərdən keçirilə və əvəz oluna bilər. Tez-tez yenidən baxılma həm ticarət, həm də istehsalat müəssisələrinin stabilliyinə aid ola bilərdi.

Malların çeşidinin formalaşması prosesində malın funksional – istehlak tanınmasına, xüsusən onun təyinatına, bazar subyektlərinin fəaliyyəti ilə bağlı funksional proseslərdə iştirakına diqqət yetirmək lazımdır. Daha sonra funksional-istehlakçı əlamətlərinə görə malların qruplaşması əsasında istehlak kompleksi işlənib hazırlanır, yəni çeşidin formalaşmasına və kompleks tələbatın qane edilməsinə yönəlmiş malların qruplarının müxtəlifliyi siyahısı hazırlanır.

İstehlak komplekslərinin yaranması əmtəə dövriyyəsinin və əmtəə ilə təmin olunmanın sənayeləşdirilməsinin tərkib hissəsidir. Mal çeşidinin optimallaşması praktiki olaraq bazara çıxarılan məmulata olan təklifin və tələbatın tarazlaşdırılmasının əsas şərtidir. Yalnız belə tarazlaşma cəmiyyətdə sivil kommersiya-təsərrüfat münasibətlərini qurmaq, bazarın bütün subyektlərinin marağını qane etməyə imkan verir. Bu vəzifənin yerinə yetirilməsində istehsal fəaliyyətinin rolu mühümdür. Dəqiq aktiv işləyən istehsalat olmadan malların rasional çeşidinin bütövlüyünü, sabitliyini formalaşdırmaq və təmin etmək real deyil.

Bazara vacib olan məhsul onun formalaşan mal çeşidinə daxil olması üçün real əsas yaradır.

İstehsalın məqsədi bazarın bütün subyektlərinin tələblərini qane etməkdən ibarətdir. Lakin tələbat ideal öyrənilsə, onun strukturu və həcmi səhvsiz proqnozlaşdırılsa, istehsalat planlarının optimal tərtib olunsa və yerinə yetirilsə belə, əgər nəticədə istehlakçıya lazımi keyfiyyətdə, arzuolunan dizaynda, müəyyən

vaxtda, yüksək xidmət səviyyəsində istehlakçı üçün əlverişli olan yerdə malların vacib çeşidi çatdırılmazsa, bu məqsədə çatmaq olmaz.

İstehsalat mahiyyətcə tələbat və təklif arasında bağlayıcı zəncirdir. Yalnız konkret məhsula olan həqiqi tələbatın öyrənilməsi istehsal sahələrinə imkan verir ki, müvafiq təklifi təmin etsin. Malın istehsalı və onun zaman və məkan çərçivəsində istehlakı arasındakı ziddiyyət istehsalat müəssisələrini məcbur edir ki, mövsümlük, bütün zəncir üzrə məhsulun hazırlanması yerindən istehlak yerinə qədər coğrafi, iqlim şəraiti kimi amillərə ciddi fikir verilsin. Bu zaman istehsalat müəssisələri əmtəə dövriyyəsinin müəyyən yerlərində əmtəə məhsulunun ehtiyatlarının yaranmasına, istehlakçı ilə bilavasitə kontakta girən ticarət müəssisələrində əmtəə məhsulunun çeşidinin toplanmasına kömək edir.

Müasir bazar münasibətləri əmtəə təklifinin daima yeniləşməsini tələb edir. Ona görə də yeni malların istehsalı və bazara buraxılışı tamamilə aktual problemdir. Elmi-texniki tərəqqi əsasında istehsal qüvvələri inkişaf etdikcə yeni malların işlənib hazırlanması və buraxılması, həmçinin məmulatların modifikasiyası tələbatın və təklifin tarazlaşmasına kömək edir. Əgər yeni malın istehlak keyfiyyəti bu malın istehlakçılarının bazar subyektlərinin tələblərinə cavab verirsə, onda mal bazarda möhkəm yer tutur. Bu zaman mal istehlakçılarda olan vəsaitdən əlavə pul qoyuluşunun cəlb edilməsi hesabına bazarın həcminin artmasına səbəb olur.

Əmtəə məhsulunun yeniliyi müxtəlif meyarlar sisteminin köməyi ilə qiymətləndirilir: əmtəə (istehlak imkanları, texniki xarakteristikalar, keyfiyyət, dizayn, qiymət), bazar (rəqabət qabiliyyəti, inkişaf perspektivi), istehsalat – satış (proqressiv texnologiyalar, yeni xammal və materiallar).

Bazarda rəqabət yarada biləcək malların istehsalatda işlənib-hazırlanması əsasında elmi-texniki tərəqqinin nailiyyətlərindən irəli gələn ideyalar durur (istehlak cəlbliyi, resursların qorunması, komplektlik, istehsalat və məişət şəraitinə yüksək uyğunlaşma qabiliyyəti).

Elmi-texniki tərəqqi, bazar subyektlərinin istehsalat fəaliyyətinin təkmilləşməsi şəraitində malların rasional çeşidinin formalaşmasında əmtəə

məhsulunun istehlak xassələrinin ekspert qiymətləndirilməsi mühümdür. Məhsulun yeni növləri yaradılarkən ən yaxşı yerli və xarici məmulat – analoqların nümunələrindən istifadə oluna bilər. Bunları bədii-konstruktor ekspertizası aşkarlamağa kömək edir.

Beləliklə, tələbat, istehsal, malların təklifi əmtəə çeşidinin formalaşmasına təsir göstərən əsas amillərdir. Bununla belə əlavə amilləri də diqqətdən yayındırmaq olmaq, o cümlədən ixtisaslaşmanı, ölçüləri, yerini, ticarət müəssisələrinin fəaliyyət zonasını, coğrafi, demoqrafik, mədəni və əmtəə məhsulunu hazırlayanların və istehlakçıların, yəni bazar subyektlərinin digər xüsusiyyətləri.

Mal çeşidinin formalaşması və bundan irəli gələn bazarın bütün subyektlərinin bu iqtisadi situasiyada məmulatla təmin olunma vəziyyəti bir çox hallarda çeşidi idarəetmə ilə müəyyən olunur. Belə idarəetmənin əsas prinsiplərinə aid ola bilər:

- marketinq tədqiqatlarına oriyentə (üstünlük vermə) olma;
- istehsal sahəsində fəaliyyətin qarşılıqlı əlaqədə olan növlərinin koordinasiyası (elmi-tədqiqat, layihə-konstruktor, texnoloji);
- dövriyyə sahəsində fəaliyyətin qarşılıqlı əlaqədə olan növlərinin koordinasiyası (bazarın konyukturasının tədqiqi, tələbatın və təklifin balanslaşdırılmasını təmin etmə, əmtəə dövriyyəsinin təşkili);
- malların differensiyası və modifikasiyası;
- bazarda malların qabiliyyətinə, onun həyat tsiklinə sistematik nəzarət;
- malların çeşid proqramında qalması və ya onların çıxarılması haqqında qərarların qəbulu;
- buraxılan əmtəə məhsulunun təkmilləşməsi və yeni perspektivinin işlənib hazırlanmasının plan və proqramlarının təsdiqi;
- əmtəə çeşidinə aid prinsipial qərarların qəbulu;
- malların çeşidinin səmərələşdirilməsinin maliyyə cəhətdən köməkliyi.

## 3.2. ŞÜŞƏ MƏMULATLARININ QABLAŞDIRILMASI, DAŞINMASI, SAXLANMASI VƏ MARKALANMASI

Malların və materialların çox böyük nomenklaturası onların saxlanılması və daşınması zamanı xüsusi şərtlər tələb edir.

**Saxlanma şərtləri.** Materialların anbarlarda və xidməti sahələrdə saxlanılması gərək onların sayının və keyfiyyətinin qorunmasına təminat versin. Bu məqsədlə bütün malları mexaniki zədələrdən, çirklənmədən, bir materialın başqa birisinə təsirindən, fiziki və kimyəvi xassələrinin dəyişməsindən qorumaq lazımdır. Buna görə də malların saxlanmasına cavabdeh olan işçilər gərək materialların saxlanması şərtlərinə və texnikasına riayət etsinlər. Saxlanılma şərtləri dedikdə malların anbarda saxlanıldığı ətraf mühit (temperatur, nəmlik, işıq və s.) nəzərdə tutulur.

Anbarlarda materialların saxlanmasının şəraitinə texnikasına onların müxtəlif qrup və növlərinə aid olan fiziki-kimyəvi xassələr təsir edir.

Materialların saxlanma şəraitini müəyyən edərkən onların anbarda nə müddətə saxlanmasını nəzərə almaq lazımdır. Malların anbarda olmasının müddətindən asılı olaraq iki növ saxlama müəyyən edirlər: uzunmüddətli və qısamüddətli.

Birinci növə (uzunmüddətli) xüsusi, ehtiyatı aşağı salmayan materiallar aiddir. İkinci növə istehsal prosesinin fasiləsizliyini saxlamaq üçün cari ehtiyat materialları aiddir.

Bəzi materiallar anbarda saxlanılarkən müəyyən temperatur rejiminə və havanın rütubətliyinə riayət etməyi tələb edir. Bu şərtlərə əməl etmədikdə materiallar korlana bilər. Anbarlarda bu tipli materiallar üçün daha əlverişli temperatur 10-19ºC, nisbi rütubət 30%-dən az olmamalıdır. Anbarlarda bu məqsədlə etibarlı vintilyasiya qurulmalı və təmizliyə riayət olunmalıdır.

Bir qayda olaraq, snbarlarda saxlanılan bütün materiallar stellajlarda sortlarına görə, ölçülərinə görə və daxilolma partiyalarına görə yerləşdirilməlidirlər. Stellajların quruluşu bu tələblərə əməl etməyə imkan verir.

Altlıqda olan materiallar stellajlarda materialların daxilolma müddətlərinə riayət olunmaqla yerləşdirilməlidir. Ona görə ki, əvvəlcədən daxil olmuş materiallar istehlakçılara tez çatdırılsın.

Mexanikləşdirilmiş və avtomatlaşdırılmış anbarlar imkan verirlər ki, materiallar stellajlarda və ştabellərdə mexanikləşmənin müxtəlif vasitələrindən istifadə etməklə yerləşdirilsin. Anbarlarda ştabellər kranlardan və elektrik yükləyicilərindən geniş istifadə edirlər. Ayrı-ayrı anbarlarda yükləmə və boşaltma əməliyyatları avtomatik rejimlə aparılır.

Anbarlarda maddi sərvətlərin düzgün saxlanılması materialların saxlanılmasını təmin etmək məqsədilə onların ciddi uçotunu təşkil etməyi tələb edir. Həmçinin kömək edir ki, artıq çoxdan qalmış materiallar aşkar edilsin və materialların qalıqları, dövriyyə dərəcəsi analiz olunsun.

Aşağıda materialların ən çox yayılmış növlərinin saxlanma şərtləri verilir.

Qara metallar və onlardan düzəldilən məmulatlar anbarlarda saxlanan zaman suyun, qazların, turşuların, qələvilərin, duzların onlara təsiri nəticəsində korroziyaya uğrayırlar. Metalların korroziyasının qarşısını almaq üçün onların səthinin müxtəlif rənglərlə, sürtgü yağları ilə örtürlər. Bu müvəqqəti metalı rütubətdən qoruyur.

Metal və metal məmulatlarını korroziyadan qorumaq üçün üsul seçərkən onların dəyərini, anbarda saxlanma müddətini və sonrakı xidməti şəraitini nəzərə almaq lazımdır. Metallar anbarlarda saxlanılan zaman ümumi tələblər bunlardır: metalları rütubətdən və atmosfer çöküntülərindən, yağışdan, qardan qorumaq; həmin yeri təmiz saxlamaq. Anbarlar gərək qazburaxan istehsalat yerlərindən uzaqda yerləşsin.

Açıq anbar meydançalarında metal konstruksiyalar, relslər, şalbanlar, borular iri profilli və ölçülü, çeşid və lövhə prokatlar saxlanılır.

Örtülü qızdırılmayan yerlərdə keyfiyyətli və alət düzəldilən poladlar, yaylı məftillər və s. saxlanılmalıdır. Qışda belə anbarların temperaturu 8-14°C-dən aşağı olmamalıdır.

**Daşınma şərtləri:** Daşınma və saxlanma prosesində bir çox yüklərdə xarici amillərin (mexaniki, iqlim, bioloji) təsir altında sayca və keyfiyyətcə dəyişikliklər olur. Bunları da saxlanma və daşınma zamanı mütləq nəzərə almaq lazımdır.

Yüklərin əsas daşınma xarakteristikaları daşınma və yükləmə əməliyyatlarının texnologiyasına şəraitinə təsir edən xassələrin cəmi ilə təyin olunur.

Daşınma xarakteristikasına təkcə yükübfiziki-kimyəvi xassələri, kütləsi, həcmi, atmosfer yağıntılarına həssaslığı. ətraf mühitə təsiri, təhlükəlilik dərəcəsi deyil, həmçinin qablaşmanın növü, onun keyfiyyəti, qabarit ölçüləri və s. aiddir.

Nəqliyyata daxil olan yüklər 3 qrupa bölünürlər: xammal, yarımfabrikatlar və hazır məhsul.

Yüklərin keyfiyyəti onların nəqliyyata yerləşdirilməsini təyin edən vacib əlamətlərdən biridir.

Yüklərin fiziki-kimyəvi xassələrindən asılı olaraq onların daşınması üçün dəmiryol nəqliyyat vasitələrindən istifadə olunur, daşınmanın vaxtı təyin olunur, həmçinin xüsusi yüklərin daşınmasının xüsusi şərtləri işlənib hazırlanır. Yükləməni və boşaltmanı asanlaşdırmaq üçün müxtəlif mexanizmlər və qurğular hazırlanır.

**Taranın malların saxlanmasına təsiri**. Məhsulu mexaniki, iqlimi və bioloji təsirlərdən qorumaq və daşınma zamanı onun keyfiyyət və kəmiyyətini saxlamaq üçün taranın və qablaşdırmanın müxtəlif növlərini tətbiq edirlər. Əsas, qablaşdırılmış məhsulun saxlanmasını təmin etmək funksiyasından başqa, tara bir sıra əlavə funksiyaları da yerinə yetirir:

- mal və materialların istehsalçıdan istehlakçıya çatdırılmağını tezləşdirir;
- yükləmə və boşaltma, anbardaxili əməliyyatları yüngülləşdirir;
- qablaşdırılmış yüklərin emalı zamanı əməyin təhlükəsizliyini təmin edir;
- uçotu və məhsulun satışının təşkilini yaxşılaşdırır;
- nəqliyyat vasitələrinin və anbarların istifadəsinin effektliyini artırır.

Tara xüsusi markirovka ilə reklam funksiyasını yerinə yetirə bilər, istehlakçıya məhsul haqqında ilk məlumatı çatdıra bilər, onunla düzgün davranma qaydalarını öyrədə bilər.

Tara qablaşdırılmış məhsulun istehlak dəyərini artırmır, ancaq onun dəyərinin artmasına səbəb olur. Taranı iki tərəfdən nəzərdən keçirmək olar: bir tərəfdən o, tamamilə məhsulun mal görünüşlü qalmasına, keyfiyyətini, sayını qoruyub saxlamağa imkan verir, digər tərəfdən məhsulun qablaşmasına sərf olunan materialları və əməyin sərf olunmasını azaldır.

Tara icrasına, təyinatına, tətbiq sahəsinə və digər əlamətlərə görə müxtəlif növlərə və tiplərə ayrılır. Funksional təyinatına görə nəqliyyat, istehlak və istehsal taraları olur.

**Nəqliyyat tarası** materiallar tədarükçüdən istehlakçıya çatdırılarkən onların qablaşdırılması və saxlanması üçündür.

**İstehlak tarası** məhsulun müəyyən miqdarı üçün nəzərdə tutulur və bütünlükdə içində olan malla birlikdə istehlakçının xüsusi əmlakına çevrilir.

Nəqliyyat tarasına yeşikləri, çəlləkləri, balonları, kisələri və s.; istehlak tarasına paketləri, flakonları, ampulaları, sınaq şüşələrini və s. air etmək olar.

**İstehsalat tarası** sexlərdə və ya müəssisənin sexləri və anbarları arasında işçi yerlərinə malların daşınması üçün, xammalın, yarımfabrikatları və hazır məhsulu daşımaq və saxlamaq üçün istifadə olunur. İstehsal taraları üçün taxtadan bütöv və ya şəbəkəli yeşiklər, metal, plastmas yeşiklər, altlıqlar, həmçinin qofrə edilmiş kartondan qutular və s. istifadə olunur. Taralar taxtadan, kartondan, kağızdan, metaldan, parçadan, şüşədən düzəlir. Ancaq işlənmə müddətindən asılı olaraq birdəfəlik, qaytarılan və çox dövr edən tara olur.

Taranın əsas əlaməti onun möhkəmliyidir. Bu zaman tara öz formasını dəyişmir, daşınma və saxlanma zamanı.

**Bərk tara** onun içinə qoyulmuş materialın təzyiqinə, həmçinin üstünə başqa yük yığılarsa, xarici təzyiqə də davamlı olur. Daşınma, yüklənmə-boşaltma zamanı təkanlara, tərpənməyə, silkələnməyə davamlı olur.

**Yarıbərk tara** ağır yük altında deformasiya oluna bilər, ancaq eyni zamanda ona yerləşdirilmiş materialı saxlamağa imkanı çatır.

Ən çox yumşaq tara işlənir ki, bu da materialı mexaniki təsirlərdən qorumur. Onun əsas vəzifəsi səpilən yükləri yükləmək və saxlamaqdır. Bu tara həm də ona görə əlverişlidir ki, onu boş olanda yığmaq olar və daşınma zamanı az yer tutur.

Tez alovlanan, tez uçan materialların (qazlar, bitki yağları, karbid və s.) daşınması və saxlanması üçün metal və polimer taralar: çəllək, balon, barabanlar və flyaqalar istifadə olunur.

Son vaxtlar kombinəedilmiş taradan istifadə olunur. Bir sıra materialların birləşməsi, xüsusi polimerlə ağacın, metalın birləşməsi, taranın uzunmüddətli və rahat olmasını təmin edir. Kombinəedilmiş taraya kiçik qabaritli və xüsusi konteynerlər, anbar sisternləri, yeşik və çəllək taraları (plastmas içlik qoyulur) aiddir.

Taranın yeni növləri yaranarkən standarta riayət olunmalıdır. Bu da taranı unifikasiya etməyə imkan verir, onun optimal ölçü və çəkisini müəyyən etmək olur. Unifikasiya taranın ......... məhdudlaşdırmağa və müəyyən növ məhsullara onun xidmətini aydınlaşdırmağa imkan verir. Taranın və qablaşdırıcı materialların standartlaşması onun istehsalını sadələşdirir.

**Nümunə-malın seçilməsi**. Bu malın rəqabətqabiliyyətli analizin ən məsuliyyətli momentidir. Bu mərhələdə səhv bütün işin nəticələrinin pozulmasına səbəb ola bilər. Nümunə gərək analiz olan məmulatın qrupuna məxsus olmalıdır. Bazar üçün daha mötəbər olmalıdır; onun əsas parametrləri zaman amilini və tez-dəyişən bazar şəraitini nəzərə almaqla dinamik nəzərdən keçirilməlidir.

**Müqayisə olunan parametrlərin yığımının təyini**. Bu zaman malın istehlak xassələrini xarakterizə edən parametrlər (onun istehlak dəyərini) və onun iqtisadi xassələrini (dəyərini) xarakterizə edən parametrlər müqayisə olunurlar.

Malın istehlak xassələri (bundan onun faydalı effekti yaranır) “bərk” və “yumşaq” istehlak parametrlərinin yığımı ilə müəyyən olunur.

“Bərk parametrlər” malın vacib funksiyalarını və onlarla bağlıməhsulun konstruktor prinsipləri ilə verilmiş xarakteristikalarını təsvir edir. Onlar bu və ya digər vahidlərdə ifadə olunan həcmə malikdirlər (məsələn, güc, ölçü, temperatur və s.). “Bərk” parametrlərin ən nüfuzlu qrupu texniki parametrlərdir. Onlar öz

növbəsində təyinat parametrlərinə (təsnifatlı, texniki effektli, konstruktiv) erqonomik, həmçinin milli və beynəlxalq standartlara, normativlərə, qanunvericilik aktlarına müvafiqliq parametrlərinə bölünür. Bütün bunlar reqlamentə olunan parametrlərdir.

"Yumşaq" parametrlər malın estetik xassələrini xarakterizə edir, yəni dizaynın, qablaşdırmanın, rəngin ifadəsidir və mallara xüsusi gözəllik verir. Son zamanlar yerli bazarlarda təkcə kütləvi tələbat olan mallar üçün deyil, həm də istehsalat təyinatlı mallar üçün "yumşaq" parametrlərin əhəmiyyətini artırır. "Yumşaq" parametrlər bir qayda olaraq, təbii fiziki ölçüyə malik olmurlar və miqdar (say) qiymətinə tabe olmurlar.

Bütün parametrlərin analizi zamanı istehlakçılar üçün böyük əhəmiyyət kəsb edənlər ön plana çəkilir. Hər bir parametrin əhəmiyyətinin təyini etibarlı bazar informasiyasına malik olan ekspertlər qrupu tərəfindən aparılır. Belə yanaşma rəqabət yarışında həlledici rol oynaya bilən ikinci dərəcəli parametrlərin dəqiq tədqiqatını istisna etmir. Tədqiqata belə yanaşmanın məqsədi istehlakçıların tələblərini maksimum qane etməkdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya araşdırmaları aparılan zaman bildik ki, şüşə məmulatları artıq 2000 ilə yaxındır ki, istehsal edilir. Bu müddətə kimi bu məmulatların istehsalı təkmilləşərək bugünkü vəziyyətə gəlib çıxmışdır. Bilirik ki, şüşə yüksək temperaturda əriyir, duru hala keçir. Onun bu xassəsindən istifadə edərək, ondan sap və tellər də alaraq müxtəlif toxuculuq mallarının istehsalında da istifadə olunaraq ondan dekorativ parçaların hazırlanmasında istifadə edirlər. Dissertasiya işində şüşə haqqında ümumi məlumat verməklə yanaşı, şüşənin keyfiyyətinə verilən tələblər, onların xam materialları, keyfiyyət ekspertizası və çeşid xarakteristikası işıqlandırılmışdır. Işin gedişatında bu nəticəyə gəldim ki, respublika bazarında yığılan məmulatların 90% xaricdən gətirilib. Bu məmulatlar estetik cəhətdən çox gözəl, rəngarəng, funksiyasına görə funksiyalarını yerinə yetirir, çox rahat və erqonomikdir.

Hal-hazırda respublikamızda yeni açılan şüşə zavodunun çeşidi üzərində işlər gedir və yəqin ki, bizim yerli istehsal olan məmulatlar xarici malları sıxışdıracaq. Yəqin ki, burada da proteksionist gömrük siyasəti öz sözünü deyəcək. Işin gedişindən bəzi qərarlar alaraq aşağıdakı təklifləri verirəm:

1. Azərbaycan Respublikası elə bir güclü təbiətə malikdir və sərvətləri ilə elə zəngindir ki, biz nəinki bir, lazım gəlsə 5-6-ya qədər şüşə zavodu açmaq iqtidarında ola bilərik. Bu da bölgələrdə yeni iş yerlərinin yaranmasına səbəb olar.
2. Hal-hazırda bütün dünya dövlətləri mətbəxdə, ondan kənarda qablaşdırıcıların hazırlanmasında ancaq şüşə materialları istifadə edirlər. Təklif edərdim ki, Azərbaycanda sıx qablaşdırıcı məmulatlar hazırlayan zavodların tikilməsinə şərait yaradılsın
3. Mətbəxlərimizi bəzəyən rəngli şüşələrdən istehsal olunmuş məmulatların hazırlanması daha məqsədəuyğundur.
4. Gələcəkdə istehsal olunan məmulatların beynəlxalq standarta cavab verməsi üçün müasir avadanlıqlardan istifadə etmək məqsədəuyğundur.

5. İstehsal olunan məmulatların dünya bazarlarına çıxışı təmin edilsin.
6. Çeşidin, təsnifatın artırılması üçün xüsusi rəssam və dizaynerlərin təhsil alması üçün xaricdə kurslar keçməsi məqsədəuyğundur.
7. Hal-hazırda bədii şüşə məmulatları çox geniş yayılmışdır və istehlakçıların böyük marağına səbəb olmuşdur. Bu sahənin də inkişafına diqqət yetirilməsi də məqsədəuyğundur.
8. Respublika brendi altında istehsal olunmuş məmulatların keyfiyyətinin yüksək olması ekspert mütəxəssislər tərəfindən yoxlanılsa, həm daxili, həm də dünya bazarında öz mövqeyini saxlaya bilər.

# ƏDƏBİYYAT SİYAHISI


1. Əli Həsənov, Cavanşir Vəliməmmədov və başqaları "Qeyri-ərzaq mallarının ekspertizası" II hissə. Bakı "Çaşıoğlu" – 2006
2. Əli Həsənov , Tofiq Osmanov və başqaları "Şüşə və keramika mallarının əmtəəşünaslığı". Bakı, 1997
3. Əli Həsənov, Zemfira Nəsirova və başqaları. "İstehlak mallarının ekspertizasının nəzəri əsasları". Bakı, 2003
4. Həsənov Əli, Osmanov Tofiq və başqaları. "Şüşə və keramika mallarının əmtəəşünaslığı". Bakı, 1997
5. Ə.H.Həsənov, Ə.İ.Babayev, Ə.P.Həsənov. "Əmtəəşünaslıq və kimya". Bakı, "Elm-2006"
6. Məcid Kərimov "Şüşə və şüşə istehsalı". Bakı, 1932
7. Alim Nuriyev. "Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi". Bakı, 1981
8. Qeyri-ərzaqn malları əmtəəşünaslığı kafedrası. "Şüşə və büllurdan hazırlanmışməmulatların ekspertizasına dair metodiki göstəriş". Bakı, 2000
9. Əli Həsənov, Nurəddin Həsənov, Nazilə Alverdiyeva və başqaları. Qeyri-ərzaq mallarının ekspertizasının praktikumu. Bakı-2014, İqtisad Universitetinin nəşriyyatı
10. Н.Качалов. «Стекло». Москва-1959
11. З.И.Коваленко, Н.А.Поремнова «Стеклянных товаров». Москва-1960.
12. Е.Ф.Пигучин «Стекло и кремики». Москва-1956
13. Н.М.Павлушкин и Т.Т.Сентюрин «Практикум по технология стекла». Промстройиздат – 1957
14. В.П.Купрниянов «Технология производство силикатных изделий». Москва-1975

15. А.Н.Дайвальтер «Хрустальные, цветные и опаловые стёкла». Гизлегпром-1957
16. Д.Б.Гинзбург «Стекловаренные печи». Гизлегпром-1948
17. Coogle – şüşə məmulatlarına dair kataloqlar
18. А.П.Ситко «Экспертиза качества стеклянных бытовых товаров». Белгород-1999

## R E F E R A T

**Mövzunun aktuallığı:** Respublikamızda məişət təyinatlı şüşə məmulatlarının istehsalı bir az zəifləmişdir. Buna səbəb şüşə istehsalı üçün lazım olan xammalların Vinnitsa, Jitomir, Dnepropetrovsk, Donesk, Zaporojye vilayətləri, Özbəkistan, Rusiyadan gətirilməsinin baha başa gəlməsidir. Odur ki, respublikamızın alimləri yerli xammal mənbələri axtarışındadırlar. Belə axtarışlara misal olaraq, kvars qumu yataqlarının Hökməlidə, Çardaxlıda, Çovdarlıda, Hacıvəlidə, Damcılıda aşkar edilməsi, Naxçıvanın Nehrəm yatağında dolomit, Tovuz rayonunun Aydağ yatağında seolit, Göyərçin-Veysəlli yatağında kaolin gilinin tapılmasını göstərmək olar. Yerli xammal hesabına öz keyfiyyət göstəricilərinə görə heç də rəqabətdə geridə geridə qalmayan şüşə məmulatları istehsal etmək alimlərin qarşısına qoyulmuş mühüm vəzifələrdən biridir.

**Mövzunun məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi yerli xammal əsasında istehsal edilmiş məişət təyinatlı şüşə məmulatlarının bəzi istehlak xassələrini tədqiq etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Məişət təyinatlı şüşə məmulatlarının xassələrini formalaşdıran amillərin öyrənilməsi:
- Məişət təyinatlı şüşə məmulatlarının istehlak xassələrinin öyrənilməsi;
- Əsas tədqiqat obyektinin seçilməsi;
- İstehlak xassələrinin tədqiqi zamanı riyazi-statistik metodlardan istifadə edilməsi

**Tədqiqat obyekti:** Tədqiqat obyekti kimi yerli xammal əsasında istehsal edilmiş məişət təyinatlı şüşə məmulatları götürülmüşdür.

**Tədqiqat metodu:** Yerli xammal əsasında istehsal edilmiş şüşə məmulatlarının bəzi istehlak xassələrini tədqiq edərkən məlum standart metodlardan istifadə olunmuş, bununla yanaşı riyazi-statistik metodlardan da istifadə olunmuşdur.

**Elmi yenilik:** Dissertasiya işində ilk dəfə olaraq, yerli xammal əsasında istehsal edilmiş şüşə məmulatlarının bəzi istehlak xassələri tədqiq edilmişdir.

**Aprobasiya:** Dissertasiya işinin nəticələri barədə vaxtaşırı olaraq magistrlərin elmi konfranslarında məlumatlar verilmişdir.

**Təcrübi əhəmiyyəti:** Dissertasiya işində işlənib hazırlanmış nəticə və təkliflər şüşə malların istehsalında tətbiq edilərsə, böyük iqtisadi səmərə verə bilər.

**Dissertasiyanın həcmi:** Dissertasiya işi girişdən, 3 fəsildən, nəticə və təkliflərdən ibarət olaraq, 75 səhifə həcmindədir.

**Шукурлу Азер Шакир**

**РЕЗЮМЕ**

В настоящее время изделия и бытового стекла являются самой широко распространенной товарной группой и эти изделия занимают особое место в повседневной жизни дюдей. В диссертационно работе нашли отражение характеристике сырья, ассортимента потребительских свойств требование, предьявляемые к качеству.

**Shukurlu Azer Shakir**

**SUMMARY**

Currently, products and household glass are the most widespread commodity group and these products occupy a special place in everyday life of the people. In the thesis work reflected the characteristics of raw materials, assortment of consumer properties, the requirement for quality.